Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5 İYUL 2019-cu il

№ 117 (4015)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN YENİ SOSİAL PARTLAYIŞ ƏRƏFƏSİNDƏ - TƏHLÜKƏNİN İLK İŞARTILARI ALAVERDİDƏ GÖRÜNMƏYƏ BAŞLADI

Olan-qalan investorlar da ölkəni sürətlə tərk edir

■ səh. 10 ■

İlham Əliyev Qarabağ problemi barədə ABŞ rəhbərinin təsəvvürlərini daha da konkretləşdirən yeni addım atdı

■ səh. 3 ■

Azərbaycan KİV rəhbərləri Rusiya Xarici İşlər Nazirliyində oldular

■ səh. 4 ■

Azərbaycan-Fransa hərbi əməkdaşlığı Ermənistanda şok effekti yaratdı

■ səh. 9 ■

Ermənilər "UNESCO 43" müstəvisində də Azərbaycana qarşı təhlükəsizlik oyunu oynadılar - yeni fiasko...

■ səh. 7 ■

UNESCO bütün gücünü Dağlıq Qarabağda ermənilərin məhv etdiyi tarix-mədəniyyət abidələrinə yönəldəcək

■ səh. 11 ■

Azərbaycanda xaricilərin maliyyələşdirdiyi proqramların əlaqələndirilməsi barədə Prezident fərmanı nəyə xidmət edəcək?

■ səh. 13 ■

Əhalinin manat əmanətlərindən dollar əmanətlərinə dönmək təhlükəsi yenidən reallaşır...

■ səh. 13 ■



## Gəncə hadisələri Azərbaycana qarşı təşkil edilmiş dünya miqyaslı şəbəkə təzyiqinin bir detalı - Əli Həsənov mahiyyəti açdı...

■ səh. 8 ■



ABŞ Konqresi ermənipərəst Qarabağ layihəsinin müzakirəsinə hazırlaşır - həm də həll üçün faydasız layihə...

■ səh. 5 ■

Azərbaycan-Fransa silah əməkdaşlığına qarşı ermənilər təskinlikverici arqument icad etdilər...

■ səh. 6 ■



Dolların ehtiyat valyuta statusu təhlükədə... Azərbaycan valyuta ehtiyatlarındakı dolların bir hissəsini qızıl və digər valyutalarla əvəzləyə bilər

■ səh. 12 ■

Redaktorlar Moskvaya Sərdar Cəlaloğlunun dediyi xırda məsələnin qayğısı ilə getməyib...

■ səh. 3 ■



Paşinyanın NATO baş katibinə müəmmalı məktubu - nəbz yoxlama, ya...

■ səh. 5 ■



İran Prezidentinin məntiqi ilə - niyə məhz Ermənistan...

■ səh. 6 ■



Universitetlər informasiya texnologiyaları ixtisasları ilə dolu, hərbidə mütəxəssis çatışmazlığı...

■ səh. 14 ■



Rayonlarda həkim-toksikoloq çatışmazlığı - Bakı xəstələrlə yüklənir...

■ səh. 15 ■





# Azərbaycanda yeni dövlət qurumu yaradıldı - Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya

**Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya"nın yaradılması haqqında Fərman imzalayıb.**

Fərmanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyətin qiymətləndirilməsini, inkişaf meyillərinin öyrənilməsi və monitorinqləri həyata keçirən, bu sahələrdə səmərəli idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə təhlil və proqnozlar hazırlayan, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya"nı iki ay müddətində yaratmaq və bu barədə Prezidentə məlumat vermək tapşırılır. Eyni zamanda NK Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Prezidentə təqdim etməli, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Prezidentə məlumat verməli, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlamalı və bunun icrası barədə beş ay müddətində Prezidentə məlumat verməli və bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

## AB İranı geri addım atmağa çağırdı, Ruhani isə zənginləşdirilmiş uran səviyyəsini artırmaqla bağlı yeni tarix açıqladı

**İran iyulun 7-dən etibarən zənginləşdirilmiş uran səviyyəsini 3.67 faiz həddinə çatdıracaq. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bunu İran prezidenti Həsən Ruhani deyib.**



Ruhani bildirib ki, razılaşmanın digər tərəfləri vədlərinə sadiq qalsa, İran da öz öhdəliklərini yerinə yetirəcək.

"Avropa və ABŞ-a tövsiyəmiz müzakirə masasına dönmələri və hüquqa hörmət etmələridir" deyən İran prezidenti, qarşı tərəf öz üzərinə düşəni edəcəyi halda, uranın zənginləşdirilmə səviyyəsini endirəcəklərini və bunu bir saat ərzində edə biləcəklərini deyib.

Bundan əvvəl isə Avropa Birliyinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Böyük Britaniya, Almaniya və Fransa xarici işlər nazirləri İranın uran zənginləşdirmə limitini keçməsilə bağlı birgə açıqlama yayıb. İranın bu addımından təəssüfləndiklərini bildirən tərəflər Tehranı geri addım atmağa və nüvə razılaşmasını poza biləcək digər tədbirlərdən çəkinməyə çağırıb.

Qeyd edək ki, İran may ayında ABŞ-ın sanksiyalarına qarşı zənginləşdirilmiş uranın həcmini artıracağını açıqlamışdı.

# Ədəbiyyat İnstitutunda Yunus Oğuzun "Səfəvi Şeyxi" romanı təqdim olundu

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yazıçı-publisist, dramaturq, tarixçi-alim Yunus Oğuzun "Səfəvi Şeyxi" tarixi romanının təqdimatı keçirilib.**



Olaylar.az xəbər verir ki, tədbirdə tanınmış ictimai-siyasi xadimlər, elm və ədəbiyyat adamları, millət vəkilləri, media nümayəndələri iştirak edib.

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq, Yunus Oğuzun çağdaş Azərbaycan ədəbiyyatındakı mövqeyindən danışıb. Onun son illərdə çap olunan tarixi romanlarının ədəbi ictimaiyyətdə doğurduğu əks-səda haqqında fikirlərini bölüşüb. Yeni çap olunan "Səfəvi Şeyxi" tarixi romanının da ədəbiyyatsevərlər tərəfindən maraqla qarşılanacağına ümid etdiyini bildirib.

Daha sonra Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, millət vəkili Elman Nəsirov, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənova, millət vəkili Nizami Cəfərov, filologiya üzrə fəslsəfə doktoru Elnarə Qaragözova, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, yazıçı Elçin Hüseynbəyli kitab haqqında çıxış edib.

Sonda müəllif Yunus Oğuz çıxış edərək, tədbirin təşkilində əziyyəti keçən hər kəsə təşəkkürünü bildirib. Müəllif "Səfəvi Şeyxi" romanını tədbir iştirakçılarına pulsuz paylayıb.

# Keçmiş əri Gültəkin Hacıbəyliyə mətbuat üzərindən müraciət etdi

***Mahmud Mehdiyev:** "Gültəkin Hacıbəyli, hər kəs qanun qarşısında bərabərdir..."*



**Keçmiş əri Mahmud Mehdiyev Gültəkin Hacıbəyliyə mətbuat üzərindən müraciət ünvanlayıb. "Trend" İnformasiya Agentliyinə daxil olan müraciətdə deyilir:**

"Gültəkin Hacıbəyli növbəti dəfə öz şəxsi keyfiyyətlərinə xas tərzdə hec bir əsas olmadan məhkəmələrin saxta qərarlar cıxarmasından və hakimiyyətin guya onu "milli şura" adlanan qurumdakı fəaliyyətinə görə təqib etməyindən danışıb.

Bir faktı nəzərinizə çatdırmaq istərdim. Oğlumla görüşməyimə imkan verməyinə görə mən 2011-ci ilin iyul ayında Dövlət Sərhəd Xidmətinə ərizə ilə müraciət edərək, daha əvvəl verdiyim etibarnamənin ləğv edildiyini bildirib, oğlumun G.Hacıbəyli ilə Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmasının qarşısının alınmasını xahiş etmişdim. Həmin ərəfədə uşaqla birlikdə xaricdən qayıdan G.Hacıbəyliyə sərhədi kecən zaman bu barədə məlumat verilmişdi. Bəs görəsən G.Hacıbəyli həmin vaxt niyə hakimiyyətin onu təqib etməsi barədə aləmə car çəkmirdi? Sadəcə ona görə ki, həmin vaxt G.Hacıbəylini ağuşuna alacaq hec bir qüvvə olmadıgından, o, hüquqlarının tapdalandıgını iddia edib bunu geniş müzakirə predmetinə cevirə bilməmiş, indiki halda oldugu kimi şəxsi münasibətlər zəminində yaranmış mübahisəni siyasiləşdirə bilməmişdi.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, valideynlərinin nikahının pozulması və ya etibarsız sayılması, valideynlərinin ayrı yaşaması uşağın hüquqlarına təsir etmir, valideynlər ayrı yaşadıqda uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir, valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər, uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyət hüququna, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir, uşaqla yaşayan valideyn digər valideynlə uşağın ünsiyyətinə mane olmamalıdır. Həmçinin qanunvericiliyin tələbinə əsasən, valideynlər razılığa gələ bilmədikdə, mübahisə onların (onlardan birinin) tələbi əsasında məhkəmə tərəfindən həll edililir.

G.Hacıyeva mənim oğluma olan qeyd olunan valideynlik hüquqlarımı pozmaqda davam edərək, icazəm olmadan uşağı xaricə aparmaq istəyərək, fakitiki olaraq məni valideynlik hüquqmudan məhrum etməyə cəhd etmiş olur. Məhkəmə də haqlı olaraq mənim valideynlik hüquqlarımı müdafiə edib. Belə ki, yetkinlik yaşına çatmayan uşaqlar barəsində qərarlar onların valideynlərinin razılığı ilə həyata keçirilməlidir. Bu razılıq qarşılıqlı olmalıdır. Bir tərəfin razılığı olmadan uşağın mənafeyi ilə bağlı qərarın qəbul olunması digər validеynin hüquqlarının pozulması deməkdir. Ona görə məhkəmə qanuni və əsaslı qərar qəbul edib. G.Hacıbəylinin məhkəmə və hakim barəsində dedikləri onun şəxsiyyətini açıq xarakterizə edir. Onun öz istəyinə uyğun məhkəmə tərəfindən qeyri-obyektiv, ədalətsiz və qanunsuz qərar çaxarılması üçün təzyiq göstərməsi, çıxarılan qanuni qərarların icrasına mane olması qanuna ziddir. G.Hacıbəyli anlamalıdır ki, hər kəs Qanun qarşısında bərabərdir.

***Mahmud MEHDİYEV***
***Gültəkin Hacıbəylinin keçmiş həyat yoldaşı***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.**




# İlham Əliyev Qarabağ problemi barədə ABŞ rəhbərinin təsəvvürlərini daha da konkretləşdirən yeni addım atdı

## *Nəzakət Məmmədova: "Prezident Əliyev haqlı olaraq Trampa məktubunda bu məsələni təfsilatı ilə qeyd etməklə..."*

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır.

Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik. Təşəbbüsçüsü olduğumuz və müvəffəqiyyətlə gerçəkləşdirdiyimiz "Cənub Qaz Dəhlizi" layihəsi isə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfədir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi bizim üçün çox əhəmiyyətlidir.

Bütün bunlarla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması xalqımızın qarşılaşdığı ən ağrılı problem olaraq qalmaqdadır. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində əzəli Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bir milyondan çox soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına əsasən ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır. Biz bu işdə ATƏT-in Minsk Qrupunun həmsədri kimi ABŞ-ın ardıcıl və qətiyyətli mövqeyinə və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim sülh və rifah diləyirəm".

Göründüyü kimi, İlham Əliyevin ünvanladığı məktubun məzmununun böyük bir hissəsi Dağlıq Qarabağ probleminin həlli ilə bağlı ABŞ-ın fəallığını artırmaq istəyi ilə bağlıdır. İlham Əliyevin məktubda toxunduğu məqamlar ABŞ rəhbərinin Dağlıq Qarabağ problemi və onun həlli ilə bağlı təsəvvürlərini daha da konkretləşdirən yeni addım kimi nə dərəcədə əhəmiyyətlidir?

**Politoloq Nəzakət Məmmədova qəzetimizə açıqlamasında bildirdi ki, hər iki ölkə başçısının mütəmadi şəkildə, əlamətdar günlərlə bağlı bir-birinə məktub göndərdiyinin şahidi oluruq:** "Xüsusilə də son dövrlərdə Prezident Tramp və Prezident Əliyevin müəyyən əlamətdar hadisələr münasibətilə bir-birinə göndərdikləri təbrik məktublarında Dağlıq Qarabağ məsələsinə xüsusi diqqət yetirilməsini müşahidə edirik. Eləcə də ABŞ Prezidentinin münaqişənin digər tərəfi olan Ermənistan rəhbərliyinə olan məktublarında da münaqişənin həllində onlardan fəallıq gözlənildiyinə aşkar mətnlə münasibət bildirildiyinə şahid olmuşuq. Trampın hakimiyyətə gəlməsindən sonra ABŞ Qarabağ məsələsinə daha fəal, təşəbbüskar yanaşmağa başlayıb. Onun milli təhlükəsizlik müşaviri Boltonun regiona səfəri, Vaşinqtonda iki ölkə XİN rəhbərlərinin görüşü və s. bunu sübut edir. Ola bilsin ki, bu, Rusiya və İranla ABŞ arasındakı ziddiyyətlərdən qaynaqlanır. Hər iki region ölkəsinə sanksiyalar tətbiq edən Tramp administrasiyası onların ortasında yerləşən münaqişənin həllində təşəbbüskarlığı ələ almaqla, Rusiya-İran geosiyasi xəttini parçalamaq istəyir. Prezident Əliyev haqlı olaraq Trampa məktubunda bu məsələni təfsilatı ilə qeyd etməklə, fövqəldövlətin başçısından onun ölkəsinin Minsk Qrupu həmsədri kimi məsuliyyətini xatırlatmaqla yanaşı, ABŞ-dan davamlı, ardıcıl, məqsədyönlü addımlar atılması vaxtının çoxdan gəldiyini vurğulamaq məqsədi daşıyır. Çünki münaqişənin həlli artıq çox uzanır. Bunun üçün də dünyanın fövqəldövlətləri məsuliyyəti tərəflərin üzərinə bərabər şəkildə yükləməkdən uzaqlaşıb, daha konkret addımlar atmalıdırlar. Biz ABŞ və digər ölkələrdən bu mövqeni istəyirik.

Beynəlxalq qanunlar və qəbul edilmiş sənədlər əsasında Ermənistanın qarşısına işğaldan əl çəkmək öhdəliyi qoyulmalıdır. Əməl etməyəcəyi təqdirdə isə onunla daha sərt metodlarla rəftar olunmalıdır. Bu baxımdan da İlham Əliyevin problemi yenidən ABŞ rəhbərinin diqqətinə çatdırması lap yerinə düşüb".

***Məhəmmədəli QƏRİBLİ***

**ADP sədri Sərdar Cəlaloğlu yazıb ki, Fuad Abbasovu Rusiya deportasiya edir, amma Azərbaycanın qəzet redaktorları Rusiyaya gediblər. Onun Azərbaycanın KİV redaktorlarının Rusiya səfərinə bu cür yanaşması redaktorların səfərinə kölgə salmaq üçün uğursuz cəhddir. Eyni zamanda, yersiz xırdaçılıqdan başqa bir şey deyil.**



# Redaktorlar Moskvaya Sərdar Cəlaloğlunun dediyi xırda məsələnin qayğısı ilə getməyib...

## *Azər Həsrət: "Məsələyə bu cür baxmaq uyğunsuz və uğursuz yanaşmadır"*

KİVDF-nin təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfəri, orada Rusiyanın dövlət qurumları, jurnalist təşkilatları və aparıcı KİV-lərin redaksiyalarında keçirdikləri görüşlər Azərbaycanın maraqlarının qorunmasını və gücləndirilməsini özündə ehtiva edir. Sərdar Cəlaloğlu kimi hansısa məsələlərə cılız prizmadan yanaşılsa, o zaman gərək Azərbaycan heç bir iş görməsin. Rusiyanın media qurumları ilə, ümumiyyətlə, heç bir təmas qurulmasın. Sanki bu cür "metodlarla" nəyəsə nail olmaq mümkündür. Bütövlükdə, belə bir yanaşmanı siyasətdən uzaq olan sadə bir vətəndaş sərgiləsəydi, bəlkə də bu qədər təəccüblü görünməzdi. Ancaq partiya sədri olan bir şəxsin bu qədər bəsit prizmadan çıxış etməsi olduqca gülünc mənzərədir.

Bir sözlə, Fuad nə böyük fiqurdur ki, bu qədər media rəhbəri onun üstündə hansısa oyunu qursun?

**Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin sözlərinə görə, onun bu cür yanaşma ortaya qoyması təəccüblüdür:** "Onun bu cür yanaşmasından təəccüblənirəm. Ona görə ki, dəxli olmayan bir məsələdir. Düzdür, Fuad Abbasov məsələsinə Azərbaycan mediası, ictimai rəyi həssas yanaşdı. Eyni zamanda, Moskvaya səfər edən redaktorlarımız da bu məsələdə həssaslıq nümayiş etdirdilər. Bütün bunlarla yanaşı, Azərbaycan KİV redaktorlarının Moskvaya səfər etməsini Fuadla əlaqələndirmək anlaşılmaz bir şeydir. Nəzərə almaq lazımdır ki, Rusiya böyük dövlətdir. Azərbaycanla istənilən halda münasibətləri var və olacaq. İki ölkə arasında münasibətlərin müxtəlif səviyyələrdə inkişaf etdirilməsi bundan sonra da davam etməlidir. Təbii ki, bəzən hansısa anlaşılmazlıqlar, qanun pozuntuları da olur. Azərbaycanlılara qarşı arzuolunmaz münasibətlərin də şahidi oluruq.

*"Bütün bunlar onu deməyə əsas vermir ki, Azərbaycan KİV redaktorları Rusiyaya səfər etməməlidirlər"*

Ancaq bütün bunlar onu deməyə əsas vermir ki, Azərbaycan KİV redaktorları Rusiyaya səfər etməməlidir. Yaxud da məhz Fuad Abbasova görə səfər etməməlidir. Ona görə də belə yanaşma anlaşılmazdır və mən bunu təəccüblə qarşılayıram.

Məsələyə bu cür baxmaq uyğunsuz və uğursuz yanaşmadır. O üzdən, məsələləri bu cür əlaqələndirməkdə Sərdar bəyə haqq qazandırmıram".

***Vidadi ORDAHALLI***

# Azərbaycan KİV rəhbərləri Rusiya Xarici İşlər Nazirliyində olublar

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı davam edir.**









Nümayəndə heyəti səfər çərçivəsində Rusiyanın dövlət qurumları, jurnalist təşkilatları və aparıcı KİV-lərin redaksiyalarında görüşləri keçirir.

Nümayəndə heyətinin növbəti görüşü Rusiya Federasiyasının Xarici İşlər Nazirliyində Nazirliyin informasiya və mətbuat departamentinin rəhbəri Mariya Zaxarova ilə olub. KİVDF-nin icraçı direktoru Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin, Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib.

Görüşdə iştirak edən Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Rusiya - Azərbaycan media qurumlarının sıx təmaslarının qurulmasının hər iki ölkənin maraqlarına xidmət etdiyini, Azərbaycan media təmsilçilərinin Moskvaya səfərlərinin bu baxımdan mühüm əhəmiyyət daşıdığını bildirib.

Mariya Zaxarova Azərbaycan KİV rəhbərlərinin Moskvaya səfərini və keçirdikləri görüşləri yüksək qiymətləndirib. Hər iki ölkədə KİV-lə bağlı maraq doğuran məqamların müzakirə edilib effektiv nəticə əldə edilməsi üçün canlı təmasların qurulmasını vacib sayıb. Görüş qarşılıqlı fikir mübadiləsi şəraitində davam edib.

Nümayəndə heyətinin üzvləri Rusiya Jurnalistlər Birliyinin sədri Vladimir Solovyovla da görüşüblər. Görüşdə iki ölkənin KİV qurumlarının və jurnalist təşkilatlarının təmaslarının gücləndirilməsi üçün təkliflər müzakirə edilib.

Daha bir görüş "Komsomolskaya pravda" qəzetində keçirilib. Azərbaycan KİV təmsilçiləri qəzetin iş şəraiti ilə tanış olublar. Sonra qəzetin baş direktoru Vladimir Sunqorkinlə görüş keçirilib. Sunqorkin qonaqları salamlayaraq, Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

**Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə**






**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru, KİVDF Müşahidə şurasının sədri Həsən Həsənov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Bakinskiy Raboçiy" qəzetinin başredaktoru Rəhman Hacıyev, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədr müavini Rəşad Nəsirov, "AzərTAC" İnformasiya Agentliyinin redaksiya müdir müavini Əziz Məmmədov, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov daxildir.**

# ABŞ Konqresi ermənipərəst Qarabağ layihəsinin müzakirəsinə hazırlaşır - həm də həll üçün faydasız layihə...

**İyulun 8-də ABŞ Nümayəndələr Palatası konqresmen Cudi Çunun Dağlıq Qarabağla bağlı təklif etdiyi düzəlişləri müzakirə edəcək. Müzakirə edilməsi gözlənilən sənəd Dağlıq Qarabağdakı qoşunların təmas xəttində müşahidə mexanizmləri və ATƏT missiyasının müşahidəçilərinin artırılması, snayper və ağır texnikaların geri çəkilməsi ilə bağlı təklifləri nəzərdə tutur.**



## *Akif Nağı: "Ermənilər bütün danışıqlarda bu tələbləri irəli sürürlər"*

Məlumatı Ermənistan KİV-i yayıb. Onlar qeyd edirlər ki, bu layihə qəbul ediləcəyi təqdirdə sülh danışıqları istiqamətindəki səylər intensivləşər və tərəflər arasındakı kommunikasiya imkanlarını daha da yaxşılaşdırar.

Çox maraqlıdır ki, ABŞ-dan irəli sürülən bu təkliflər atəşkəsin saxlanması və sülhdə irəliləyişin əldə edilməsi üçün nəzərdə tutulsa da, bizim maraqlarımıza birbaşa ziddir. Bu layihənin reallaşması mümkündürmü və ABŞ-dan niyə belə cəhdlər olunur?

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə bildirdi ki, Nümayəndələr Palatasında irəli sürülən bu təklif birbaşa Ermənistan maraqlarına uyğundur:** "Ermənilər bütün danışıqlarda bu tələbləri irəli sürürlər. Məqsəd də status-kvonu qoruyub saxlamağa xidmət edir. Ermənistan bununla addım-addım işğal faktorunu unutdurmağa çalışır. Bilirik ki, ABŞ-da ermənipərəst konqresmenlər çoxdur. Onlar tez-tez ermənilərin xeyrinə olan belə layihələri müzakirəyə çıxarmağa cəhd edirlər. Bu da onların növbəti cəhdidir. Təklif olunan düzəlişlərin keçib-keçməyəcəyi barədə nəsə deyə bilmərəm. Hər halda, ABŞ-ın özündəki qüvvələr də məsələyə ayıq başla yanaşmalıdırlar. Oradakı konqresmenlərin arasında da Azərbaycanın dostları da var. Onlar da çox fəal fəaliyyət göstərirlər. Ola bilsin ki, sayları ermənilər qədər deyil, amma ortada fəaliyyət mövcuddur. Onlar da bu zərərli düzəlişlərin keçməməsi istiqamətində səylərini göstərməlidirlər. Azərbaycan hətta rəsmi səviyyədə, oradakı səfirliyimizin əli ilə bu məsələyə kəskin etirazını bildirməlidir. Bir faktı da qeyd edim ki, hətta orada hər hansı düzəliş qəbul edilsə belə, onun tətbiqi mümkün deyil. Çünki münaqişənin həlli ilə bağlı səlahiyyətli mandat ABŞ-dakı konqresmenlərin və ya hansısa palatanın əlində deyil. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, həmin təkliflərlə razı deyil. Biz bildiririk ki, Ermənistan işğalçı siyasətindən əl çəksə, bütün problemlər öz həllini tapacaq. Azərbaycan rəsmiləri snayperlərin geri çəkilməsi ilə bağlı təklifin kökündən araşdırılmasını tələb edir. "Ermənistan snayperi Azərbaycan torpağında nə edir ki, indi də ona təhlükə yaransın" kimi sualı onlara veririk. Bunun qarşısında aciz qalırlar. ABŞ bir həmsədr ölkə kimi problemin həllinə kökündən yanaşmalıdır.

*"Məqsəd də status-kvonu qoruyub saxlamağa xidmət edir"*

Bu baxımdan da ermənipərəst konqresmenin təkliflərinin heç bir hüquqi təsir mexanizmi olmayacaq. Sadəcə, bu cür təklifləri gündəmə gətirməklə erməni lobbisindən aldıqları pulları silirlər. Guya hansısa bir işi gördüklərinə dair rəy formalaşdırırlar. Bu daha çox informasiya savaşı üçün nəzərdə tutulmuş addımdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın NATO baş katibinə müəmmalı məktubu - nəbz yoxlama, ya...

**Ermənistanın xüsusi xidmət orqanları Baş nazir Nikol Paşinyanın sosial şəbəkələrdə yayılmış məktubunun müəllifini axtarırlar. NATO-nun baş katibi Yens Stoltenberqə ünvanlanmış məktubda Ermənistan hökumətinin başçısı Şimali Atlantika Alyansı ilə daha sıx əməkdaşlığa hazır olduğunu və Dağlıq Qarabağ münaqişəsinin bunun qarşısında ən böyük əngəl təşkil etdiyini bildirir.**



## *Hatəm Cabbarlı: "Məzmunda olduqca radikal addımlardan söz açılır ki, bunu da Paşinyan etmək gücündə deyil"*

O, bu kontekstdə guya ilin sonunadək "erməni qoşunlarını Dağlıq Qarabağdan çıxaracağını" vəd edib. Məktubda Ermənistan qoşunlarının münaqişə zonasından çıxarılacağı və Dağlıq Qarabağın Azərbaycanın nəzarətinə veriləcəyinə dair ümumxalq referendumu keçiriləcəyi barədə fikirlər də yer alıb.

Erməni tərəfi bildirir ki, bu məktubu ilk dəfə informasiya təhlükəsizliyi üzrə ekspert Samvel Martirosyan aşkar edib. O bildirib ki, yüksək ehtimalla məktubun mətni Ermənistanın hüdudlarından kənarda hazırlanıb. Ermənistan milli təhlükəsizlik xidmətinin mətbuat katibi Samson Qalstyan isə bu vəziyyəti şərh etməkdən imtina edib.

Ermənistan Xarici İşlər Nazirliyinin rəsmisi məktubun feyk olduğunu təsdiq edib, lakin onu şərh etmək istəməyib.

Kibertəhlükəsizlik üzrə ekspert Martirosyan qeyd edib ki, məktub çox savadlı hazırlanıb. Paşinyanın mətbuat katibi də bu məsələ ilə bağlı jurnalistlərin suallarını cavablandırmayıb. Ermənistan tərəfi məktubun feyk olması ilə bağlı iddialarını çox gec irəli sürüb. Bu məlumat Rusiya KİV-ində tirajlanandan bir neçə gün sonra Ermənistanın mövzunu rəsmən təkzib etməsi nəbzi yoxlamasıdır, yoxsa…

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələ bir neçə gündür sosial şəbəkələrdə və siyasi dairələrdə geniş müzakirə edilir:** "Əslində, məktubun Nikol Paşinyan tərəfindən göndərilmə ehtimalı olduqca az idi. Artıq bunun saxta sənəd olduğu müxtəlif mənbələr tərəfindən təsdiq olunub. Ermənistan və bölgədəki vəziyyətin gərginliyi fonunda bu məzmunda məktubun niyə məhz indi dövriyyəyə buraxılması maraqlı görünür. Ermənistan Nikol Paşinyan hakimiyyətə gələndən sonra Rusiya ilə daha məsafəli davranmağa çalışır. İstiqamətini daha çox Qərb institutlarına doğru götürür. Məktubun məzmununa diqqət yetirdikdə görürük ki, Paşinyanın NATO-ya üzv olmaq istəyi xüsusi vurğulanır. Eyni zamanda, bunun qarşısındakı əsas maneənin Dağlıq Qarabağ konflikti olduğu bildirilir. Məktubda həm də cari ilin sonuna qədər Ermənistanın Dağlıq Qarabağdan ordusunu çəkmək istəyi də yazılır. Ermənistanın real mövqeyi ilə məktubda yazılanları tutuşduranda, yazılanların həyata keçməsinin mümkünsüzlüyünə şübhə qalmır. Ermənistan rəsmilərinin məktubun saxta olduğunu dərhal deyil, iki gün sonra təkzib etməsi isə bir başqa mövzunun söhbətidir. Onda isə bu saxta məktubun kim tərəfindən yazılması çox maraqlıdır. Böyük ehtimalla demək olar ki, bunu Nikol Paşinyanın hakimiyyətdə qalmasını istəməyən qüvvələr təşkil edə bilər. Hesab edirəm ki, məktub daha çox Ermənistan-Rusiya münasibətlərini gərginləşdirməyə hesablanıb. Həm də Nikol Paşinyanın Ermənistan daxilindəki nüfuzuna xələl gətirmək məqsədi üçün ortaya atılıb. Məktubun saxta olduğu qeyd edilsə də, onun ətrafında düşündürücü məqamlar çoxdur.

Bölgədə, xüsusilə də Gürcüstanda anti-Rusiya çıxışlarının aktivləşdiyi dönəmə təsadüf etməsi də olduqca maraqlıdır. Böyük ehtimalla burada məqsəd Ermənistanın daxili ictimai-siyasi həyatını gərginləşdirmək olub. Məzmunda olduqca radikal addımlardan söz açılır ki, bunu da Paşinyan etmək gücündə deyil. Amma bununla Ermənistan vətəndaşlarının qəlbində Paşinyana qarşı mənfi mənada bir iz sala bildilər".

***Məhəmmədəli QƏRİBLİ***

**Fransa və Azərbaycan arasında hərbi sənaye sahəsində əməkdaşlıq erməni tərəfinin daim diqqət mərkəzindədir. Bu fikirləri Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan İrəvanda keçirilən brifinqdə bildirib.**



# Azərbaycan-Fransa silah əməkdaşlığına qarşı ermənilər təskinlikverici arqument icad etdilər...

## *Mübariz Əhmədoğlu: "Nə Ermənistan, nə də erməni lobbisi Azərbaycanın Fransa ilə hərbi sahədə əməkdaşlığına mane ola bilməyəcək"*

Fransanın Azərbaycana silah satması barədə mətbuatda dərc edilən yazıları şərh edən A.Naqdalyan deyib ki, İrəvan vəziyyəti diqqətlə izləyir və ikitərəfli görüşlərdə bu məsələni qaldırır. O, Fransa Prezidenti Makronun bu il fevralın 5-də söylədiyi fikirlərdən sitat gətirib: "Fransa heç zaman Azərbaycana elə silah satmaz ki, ondan Qarabağda istifadə olunsun".

Qeyd edək ki, "Paris Air Show-2019" silah sərgisi zamanı Azərbaycan Müdafiə Sənayesi Nazirliyi və Fransanın "Nexter" silah istehsalçısı zirehli texnika, dəniz və hava platformaları üçün müxtəlif silah növləri, həmçinin, robot texnikasının birgə istehsalını müzakirə ediblər. Bundan əlavə, "Thales Group" şirkəti Azərbaycanda müxtəlif növ aşkaretmə və radiolokasiya sistemlərinin istehsalı üzrə birgə müəssisə, həmçinin, regional servis mərkəzi yaratmaq niyyətindədir.

Bütün bunlar da erməni tərəfini bərk narahat edir. Ermənilər Fransa ilə əlaqələrə o qədər arxayın idilər ki, Azərbaycanın Fransa ilə silah sahəsində əməkdaşlığını təsəvvürlərinə belə gətirmək istəmirdilər. Ancaq indi bu istiqamətdə Azərbaycanla Fransanın əməkdaşlığını görəndə özləri də çaşbaş qalıblar. Bu səbəbdən Ermənistan özünə təskinlik verərək Azərbaycanın Fransa ilə bu sahədə əməkdaşlığına şübhə ilə yanaşır.

**Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri Mübariz Əhmədoğlunun sözlərinə görə, Ermənistan Fransanın Azərbaycana silah satmasına mane ola bilməyəcək:** "Fransa Azərbaycana bəzi hərbi silahlar satır. Həmin silahlar da Azərbaycanın müdafiə mövqeyini gücləndirir. Fransanın Azərbaycanla birgə hərbi xarakterli məhsullar istehsal etmək perspektivi də yüksəkdir. Bununla bağlı iki ölkə arasında danışıqlar gedir. Fransa buna görə Ermənistandan icazə alası deyil. Azərbaycanın kosmosda olan peyklərindən biri Fransa tərəfindən bizə satılıb. Həmin peyk sayəsində Azərbaycan öz ərazilərinə tam nəzarət edə bilir. Bütün bunları deməkdə məqsədim ondan ibarətdir ki, nə Ermənistan, nə də erməni lobbisi Azərbaycanın Fransa ilə hərbi sahədə əməkdaşlığına mane ola bilməyəcək. Ermənilər güclü olsaydılar, bir neçə il əvvəl bütün bunların qabağını ala bilərdilər. O vaxt buna nail ola bilmədilərsə, indi də nəyəsə nail ola bilməyəcəklər. İndi silahla bağlı Azərbaycana nə lazımdırsa, Fransadan alacaq.

*"O vaxt buna nail ola bilmədilərsə..."*

Erməni faktoru Fransanın Azərbaycana silah satmasına maneçilik törədə bilməz. Mərhum prezident Heydər Əliyevin dövründən bizim Fransa ilə əlaqələrimiz yaxşı səviyyədədir. Ona görə də Naqdalyan olmur, kim olursa-olsun, buna gücü çatmayacaq".

***Vidadi ORDAHALLI***

**Tehran İrəvanla siyasi və iqtisadi sahələrdə münasibətləri inkişaf etdirməkdə əzmlidir. İRNA agentliyinin məlumatına görə, bu fikirləri İran Prezidenti Həsən Ruhani iyulun 3-də Tehranda Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanı qəbul edərkən bildirib.**



# İran Prezidentinin məntiqi ilə - niyə məhz Ermənistan...

## *Məhəmməd Əsədullazadə: "İran məhz Azərbaycana təzyiq rıçaqları əldə etmək üçün Ermənistanla bu qədər yaxın əlaqələr saxlayır"*

İran Prezidenti iki ölkənin dostluğunu xüsusi vurğulayıb: "İran xalqı Ermənistanla hər zaman dost münasibətində olub və biz istəyirik ki, bu münasibətlər daha da möhkəmlənsin və inkişaf etsin".

O qeyd edib ki, İran hər zaman öz qonşuları, əsasən də Ermənistanla yaxşı münasibətlər qurmağa çalışır. H.Ruhani birgə layihələrin reallaşmasının sürətləndirilməsinin və ikitərəfi münasibətlərin genişləndirilməsinin vacibliyini vurğulayıb. O, Tehran və İrəvan arasında bank əməkdaşlığının möhkəmləndirilməsinin vacibliyini qeyd edib. Deyib ki, qarşılıqlı hesablaşmalarda milli valyutalara keçid əmtəə dövriyyəsinin artmasına səbəb olacaq.

H.Ruhani xatırladıb ki, iyunda İran parlamenti Avrasiya İqtisadi Birliyi ilə azad ticarət zonası haqda sazişi ratifikasiya edib. Bu, İranın Avrasiya ölkələri ilə əməkdaşlığı genişləndirməsi üçün yaxşı imkanlar yaradır.

İranın Ermənistana bu qədər önəm verməsi heç cür anlaşılan deyil. Ard-arda rəsmi Tehranın İrana yönəlik reveranslar etməsi müəyyən sualların yaranmasına şərait yaradır. Niyə məhz qonşulardan əsasən Ermənistanla? Ermənistanın hansı önəmi var ki, İran bu qədər önəm verir?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı:** "Ermənistan-İran münasibətləri əsasən siyasi cəhətdən yüksək səviyyədədir. Hər iki tərəf çox çalışır ki, bunu iqtisadi müstəvidə yüksək səviyyəyə qaldırsın, amma bu mümkün olmur. Ona görə ki, İrana qarşı hazırkı sanksiyalar bu ölkəni defolt vəziyyətinə gətirib. Həmçinin, Ermənistanın müstəqil iqtisadiyyatı olmadığı üçün, onun İranla əməkdaşlıq perspektivləri yoxdur. Bir nüansa diqqət çəkmək lazımdır ki, İran məhz Azərbaycana təzyiq rıçaqları əldə etmək üçün Ermənistanla bu qədər yaxın əlaqələr saxlayır. Hesab edirəm ki, Tehran rejimi haçansa mütləq şəkildə bu yanlış siyasətdən əl çəkəcək. Baxın, İran yalnız Azərbaycanla ciddi iqtisadi layihələrə imza atıb. Ermənistan onlara nə verib? Heç nə. Heç bir şey verə də bilməz. İran Prezidenti Həsən Ruhaninin bu açıqlaması, təbii ki, işğalçı ölkəyə dəstəkdir. İran neçə ildir işğalçıya verdiyi dəstəkdən geri çəkilmir. İran konstruktiv siyasət aparsa, yalnız o zaman regionda öz mövqeyini gücləndirə bilər. İranın aqressiv siyasəti nəticəsində bu gün ona qarşı sanksiyalar tətbiq edilib. Hətta Ermənistan da bu sanksiyalara qoşulmağa hazırdır. Ancaq Azərbaycan dəfələrlə bu sanksiyalara qoşulmayacağını bəyan edib. Belə olan təqdirdə, Tehranın bu davranışları Azərbaycan tərəfindən mənfi qəbul edilir.

*"Ermənistanın müstəqil iqtisadiyyatı olmadığı üçün, onun İranla əməkdaşlıq perspektivləri yoxdur"*

Nə qədər ki, İran regionda bu kimi siyasət aparacaq, ona qarşı sanksiyalar davam edəcək. Məhz indi İran ətrafında yaranan gərginlik də rəsmi Tehranın bu kimi siyasətinin nəticəsidir. Hesab edirəm ki, mütləq şəkildə Tehran rejimi konstruktiv siyasət ortaya qoymalı və Azərbaycanla səmimi əlaqələri inkişaf etdirməlidir".

***Vidadi ORDAHALLI***

**Bakının evsahibliyi ilə keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası Ermənistanı ciddi şəkildə əndişələndirir. Bakı sessiyasından əvvəl ermənilər ciddi cəhdlə Azərbaycana qarşı qara piar kampaniyası aparır və iddia edirdilər ki, Azərbaycan UNESCO-nun belə nüfuzlu tədbirinə evsahibliyi edə bilməz.**

# Ermənilər "UNESCO 43" müstəvisində də Azərbaycana qarşı təhlükəsizlik oyunu oynadılar - yeni fiasko...

## *Faiq Ələkbərli: "Ermənistanın ortaya atdığı son iftira da nəticə verməyəcək"*

İşğal altında saxladıqları Azərbaycan ərazilərindəki tarix-mədəniyyət abidələrimizə qarşı törətdikləri vandalizm hərəkətlərindən utanmayan ermənilər ölkəmizə qarşı iftira ataraq Azərbaycanda "ermənilərə aid tarix-mədəniyyət abidələrinin dağıdıldığı"nı iddia edirdilər. Əlbəttə, bu, bir erməni saxtakarlığından başqa bir şey deyil.

43-cü sessiyanın davam etdiyi vaxtda indi də ermənilər başqa bir iftira ilə gündəmə gəlməyə çalışırlar. Ermənistanın Bakı sessiyasında təmsil olunmamasının səbəbi kimi onlar burada təhlükəsizlik probleminin olduğunu iddia edirlər. Guya ki, ermənilər sessiyada iştirak etmək üçün Bakıya gəlsəydilər, burada onları təhlükə gözləyərdi.

Məsələyə Azərbaycan XİN-in Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva da münasibət bildirib. O qeyd edib ki, UNESCO-nun Bakıda keçirilən Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında bəzi iştirakçılara Azərbaycan tərəfindən təhlükəsizlik zəmanətinin təmin edilməməsi mümkün deyil. Azərbaycanla UNESCO arasında imzalanan sazişə görə hər hansı istisna olmadan tədbirin bütün iştirakçılarının təhlükəsizlik zəmanəti ilə təmin edilməsi də daxil olmaqla, müvafiq təşkilati məsələlər öz əskini tapıb: "Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək niyyətində olan və Azərbaycan tərəfindən müvafiq təhlükəsizlik zəmanətini əldə edən UNESCO-nun bütün iştirakçı dövlətləri tədbirdə iştiraklarını təmin ediblər.

Ermənistan tərəfinin öz nümayəndələri üçün əlavə təhlükəsizlik zəmanəti tələb etməsi cəhdlərinə gəldikdə isə bu, Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil edilən növbəti beynəlxalq tədbirdə iştirakdan yayınmaq məqsədilə bu ölkənin siyasi qərarından başqa bir şey deyil. Əgər Ermənistan XİN-i hələ də Ümumdünya İrs Komitəsinin sessiyasının keçirilməsinin texniki qayda və prosedurları haqda məlumatlı deyilsə, o zaman onların bu kimi tədbirlərin bütün iştirakçılarına ümumi və universal zəmanətlərin verildiyi və ölkələrə ayrılıqda xüsusi qeyd-şərtlərin tətbiq edilmədiyini öyrənmək məqsədilə UNESCO Katibliyinə müraciət etmələri yaxşı olardı".




## *"... onlar sessiyada öz ölkələrini ifşa edən yüzlərlə faktla, əsaslı tənqidlərlə üzləşəcəkdilər"*

**Ermənistanın Azərbaycandan təhlükəsizlik zəmanəti tələb etməsinə münasibət bildirən tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, ermənilərin bu iddia ilə çıxış etməsinin heç bir əsası yoxdur.** Azərbaycanın, ümumiyyətlə, təhlükəli ölkə olmadığını deyən F.Ələkbərlinin sözlərinə görə, Ermənistanın Bakı sessiyasına qatılmamasının səbəbi tamamilə başqadır. "Ermənistan UNESCO-nun belə bir mötəbər tədbirini Azərbaycanın evsahibliyi ilə keçirməsini həzm edə bilmir.

*"İndiyə qədər Bakıda keçirilən beynəlxalq tədbirlərdə, idman yarışlarında ermənilər də iştirak ediblər, lakin onlar burada heç bir təhlükə ilə üzləşməyiblər"*

Bu da ondan irəli gəlir ki, Azərbaycan nəinki regional, eləcə də beynəlxalq səviyyəli müxtəlif tədbirlərin yüksək səviyyədə, tam təhlükəsizlik şəraitində keçirildiyi təhlükəsiz bir məkan kimi tanınır. Ermənistan isə tamamilə təhlükə içindədir, onun bir dövlət kimi həyata keçirdiyi məkrli siyasət bütün dünya üçün təhlükədir. Ermənistanın Bakı sessiyasına qatılmamasının başlıca səbəblərindən biri işğalçı dövlət kimi bir daha ifşa edilməsi qorxusudur. Çünki Ermənistan təmsilçiləri bura gəlsəydilər, onlar sessiyada onları ifşa edən yüzlərlə faktla, əsaslı tənqidlərlə üzləşəcəkdilər. Bu üzdən də tədbirə qatılmadılar və yalandan məlumatlar yaydılar ki, guya Azərbaycanda ermənilərlə bağlı təhlükəsizlik problemi var. Halbuki, Azərbaycanda erməniləri heç bir təhlükə gözləmir. İndiyə qədər Bakıda keçirilən beynəlxalq tədbirlərdə, idman yarışlarında ermənilər də iştirak ediblər, lakin onlar burada heç bir təhlükə ilə üzləşməyiblər. Sadəcə, beynəlxalq tədbirlərdə ermənilərin yalanları, saxtakarlıqları ifşa olunub. Saxtakarlıqda, məkrli siyasət aparmaqda mahir olan ermənilərin əməlləri bütün dünyaya məlumdur.

Azərbaycan ermənilər üçün təhlükəli ölkə deyil. Ümumiyyətlə, Azərbaycan təhlükəsiz bir ölkədir və biz bunu dəfələrlə ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin, idman turnirlərinin, futbol çempionatlarının iştirakçılarından da eşitmişik. Bakı sessiyasında iştirak edən bütün qonaqlar, xarici ölkə nümayəndələri Azərbaycanın əmin-aman, təhlükəsiz bir ölkə olduğunu bəyan etdiyi bir halda, necə ola bilər ki, ermənilər ölkəmizi təhlükəli məkan kimi görürlər. Hesab edirəm ki, Ermənistanın ortaya atdığı son iftira da nəticə verməyəcək" - deyə F.Ələkbərli qeyd etdi.

***İradə SARIYEVA***

# Gəncə hadisələri Azərbaycana qarşı təşkil edilmiş dünya miqyaslı şəbəkə təzyiqinin bir detalı - Əli Həsənov mahiyyəti açdı...

## Qabil Hüseynli: *”Əli müəllim çox doğru olaraq vətəndaşlarımıza bu cür həssas məsələlərdə ayıq olmağı tövsiyə edir”*

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Gəncədə ötən il baş vermiş terror aktlarının ildönümü ilə bağlı açıqlama verib. Açıqlamada bildirilir ki, Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür:**

"Keçən müddətdə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların dövlət və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyətini Azərbaycanın keçmiş vətəndaşları təşkil edən, radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb.

Qruplaşmanın sosial şəbəkələrdəki səhifə və profillərində, habelə bəzi dövlətlərin klerikal dairələri tərəfindən idarə olunan saytlarda fəallaşması birmənalı olaraq ifrat dini radikallığın, fundamentalizmin dəstəklənməsi kimi dəyərləndirilə bilər.

Dini şüarlarla pərdələnən, təxribatçı, niyyəti dövlətlə xalq arasında inamsızlıq, mümkün olarsa düşmənçilik toxumları səpmək olan bəzi internet resurslarında Gəncədə törədilmiş terror aktının əsas personajı, Rusiya vətəndaşı Yunis Səfərovun Suriyada döyüşlərdə iştirakını təsdiqləyən kadrlar nümayiş etdirilir və onu əsl "qəhrəman" kimi populyarlaşdırmağa cəhdlər olunur, xanımının hadisədən dərhal sonra etdiyi müraciət təkrar-təkrar yayımlanır.

Təəssüf doğuran odur ki, özlərinin demokrat və dünyəvi dövlət tərəfdarı olduqlarını iddia edən bəzi müxalifət liderləri və fəalları da terroru təşviq edən belə bir kampaniyaya dəstək verir, ifrat ekstremizmi özünə ideologiya seçmiş xarici qruplaşmaların istifadə etdiyi şüarları təkrarlayır, bu səpkidə çağırışlar səsləndirir, ölkəmizin çoxəsrlik dini dözümlülük mühitini, tolerant imicini şübhə altına alırlar".

Əli Həsənov bildirir ki, demokratiya dəyərlərinə sadiq olduğunu iddia edən bu tip müxalifətin, əslində, həmin dəyərlərə qənim kəsilənləri, radikalizmi, ifrat dini fundamentalizmi dəstəklədiyi göz önündədir: "Belədirsə, həmin müxalifətə, görəsən, hansı Azərbaycan gərəkdir? Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan, sabit, qüdrətli və demokratik Azərbaycan, yoxsa Sudan, Somali, Liviya, Suriya və s. ölkələr kimi amansız daxili savaşın, qanlı xaosun, faciəvi vətəndaş qarşıdurmasının və terror qruplaşmalarının tüğyan etdiyi poliqon? Bəlkə onlar Azərbaycanı orta əsrlərin qaranlıq dövrünə qaytarmaq, ölkəmizi şəriət qanunları ilə idarə olunan məkana çevirmək istəyirlər?"

Prezidentin köməkçisi açıqlamasının sonunda bildirir ki, dövlətin təhlükəsizliyi və milli mənafelər heç bir zaman, heç bir vəchlə və ya şərtlə müzakirə mövzularına çevrilməməlidir: "Bəhs etdiyim dəyərlərə kiçik də olsa, təhdid yaranarsa, hər bir azərbaycanlı vətəndaş mövqeyi, milli iradə ortaya qoymalıdır. Mövcud həssas vəziyyətdə cəmiyyətimiz qətiyyət və sayıqlıq, vətəndaşlarımız milli dövlətçilik naminə sıx birlik nümayiş etdirməli, ictimai rəyə təsir imkanları olan ziyalılarımız daha düşünülmüş şəkildə və həssas davranaraq, konkret insanlara bəslənən münasibətlə Vətənin mənafeləri və dövlətin maraqlarını bir-birindən fərqləndirməlidirlər".

Göründüyü kimi, Prezidentin köməkçisi bir il əvvəl baş verən Gəncə hadisələrinin ətraflı izahını verir. Həmin hadisələrin, əslində, ölkəmizə qarşı xarici dini-radikal qruplaşmaların təşkil etdiyi bir təxribat olduğunu bildirir. Burada bəzi siyasilərin, hətta media orqanlarının rolundan da danışır. Gəncə hadisələri ilə bağlı verilən bu izah Azərbaycana qarşı təşkil edilmiş dünya miqyaslı şəbəkənin təzyiqi barədə nə dərəcədə ətraflı rəy formalaşdırmış olur?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Əli Həsənov bu məsələ ilə bağlı verdiyi izah konkret faktlara və çox dərin, ümumiləşdirilmiş məlumatlara əsaslanır:** "Əli Həsənov bu faktları əlinin altında olan məlumatlara əsaslanaraq sadalayıb. Burada söhbət həm də o məlumatları sadə xalqa lazım olan dildə çatdırmaqdan gedir. Bu baxımdan izahı mükəmməl sayıram. Həmin hadisələrdə əli olan şəxslərin istintaq zamanı verdiyi ifadələrdə də biz həmin yazıda sadalanan faktların təsdiq edildiyinin şahidi oluruq. Əli müəllim hadisələrin başvermə səbəbləri, bu məsələdə qızışdırıcı mövqe tutanlar, xarici qüvvələrin səylərindən ətraflı və konkret faktlar əsasında bəhs edib. Artıq tam sübuta yetdi ki, bəzi dairələrin "qəhrəman" kimi qələmə verməyə çalışdığı Yunus Səfərov İranda təlim keçib, hətta Suriyada vuruşub. Bu bir daha sübut edir ki. hadisənin qızışdırılmasında dini radikal elementlərin və onların xaricdəki ideoloqlarının ciddi işbirliyi olub. Mən Gəncənin keçmiş rəhbərliyinin fəaliyyətini də təqdir etməmişəm. Onun əhali ilə sərt rəftarı şəhərdə ciddi narazılıq yaratmışdı. Bundan da xarici xüsusi xidmət orqanları məharətlə istifadə edə bildilər. Amma hansısa narazılıq dövlətin təyin etdiyi məmurla belə sərt üsullarla haqq-hesab çəkilməsinə əsas vermir. Gördünüz ki, hadisələr yalnız icra başçısına atılan güllə ilə yekunlaşmadı. Sonra şəhər meriyasının qarşısına çıxan radikal kütlə iki polis zabitimizi qətlə yetirdi. Bütün bunlar göstərdi ki, ölkəmizə qarşı məkrli bir təxribat hazırlanmışdı. Çox şükürlər olsun ki, güclü dövlətimiz və onun fədakar vətəndaşlarının səyi nəticəsində onların praktiki hərəkət planlarının həyata keçməsinə imkan verilmədi. Əli müəllim çox doğru olaraq vətəndaşlarımıza bu cür həssas məsələlərdə ayıq olmağı tövsiyə edir, daim dövlətin yanında olmağı məsləhət görür. Doğru izahdır. Hesab edirəm ki, vətəndaşlarımız bundan ciddi nəticələr çıxaracaqlar".



*Məhəmmədəli QƏRİBLİ*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan-Fransa hərbi əməkdaşlığı Ermənistanda şok effekti yaratdı

**Azərbaycanın hərbi müstəvidə işğalçı Ermənistan üzərində malik olduğu üstünlüyü gedərək artırması düşmən ölkədə yaranan təşvişin miqyasını daha da genişləndirməkdədir. Hazırda bu xüsusda Ermənistanı qorxudan başlıca məqamlardan biri Azərbaycanın Qərb ölkələrindən də hərbi texnologiyaların idxalını həyata keçirməsi, eyni zamanda Avropa dövlətlərilə hərbi sahədə müştərək müəssisələr yaradıb birgə istehsala start verməsidir.**

Ermənistanda etiraf edirlər ki, bu hal Azərbaycanın hərbi üstünlüyünün daha da artmasına gətirib çıxaracaq.

Bununla yanaşı, Ermənistanın özünə müttəfiq saydığı ölkələrin də Azərbaycanla dərinləşən hərbi əməkdaşlığını düşmən özü üçün əsas təhdidlərdən biri sayır. Qeyd olunan xüsusda Fransa ilə qurulan işbirliyi Ermənistanda əsl ajiotaja səbəb olub. Belə ki, Ermənistan Fransa-Azərbaycan hərbi-texniki əməkdaşlığından təşvişə düşüb. Erməni mediasının yazdıqlarından belə bəlli olur ki, rəsmi İrəvan "Paris Air Show-2019" hərbi texnika sərgisində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi və Fransanın "Nexter" silah və hərbi texnika istehsalçısı arasında danışıqlardan ciddi narahatlıq keçirib. Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Naqdalyan bildirib ki, rəsmi İrəvan Fransa şirkətinin Bakıya tədarük edəcəyi hərbi texnikanın Qarabağda istifadə olunmayacağına ümid edir. Lakin erməni rəsmisi sadə həqiqəti unudub ki, dünyada hərbi-texniki əməkdaşlıq sahəsində bağlanılan müqavilələrdə bu cür şərtlər qoyulmur. Təşvişə düşən erməni rəsmisi Fransanı Azərbaycana silah satmamağa çağırıb. Parisin bu addımının regionda tarazlığı pozacağını, sülhə və sabitliyə mənfi təsir göstərəcəyini söyləyən XİN rəsmisinin sözləri, təbii ki, Ermənistanın müdafiə naziri David Tonoyanın Azərbaycana qarşı səsləndirdiyi hədələrin fonunda qeyri-səmimi görünür. Digər tərəfdən, erməni rəsmilərinin çağırışlarına rəğmən, Fransa da daxil olmaqla, Qərb ölkələri Azərbaycanla hərbi əməkdaşlığa xüsusi önəm verir. Ötən ay baş tutmuş "Paris Air Show-2019" sərgisi çərçivəsində keçrilən görüşlərin nəticələri də bunu təsdiq edir.

Xatırladaq ki, hərbi təyinatlı aviasiya sahəsində dünyanın ən nüfuzlu sərgilərindən biri olan bu tədbirdə Azərbaycan da təmsil olunub. Sərgi çərçivəsində müdafiə sənayesi nazirinin müşaviri Fərrux Vəzirov Fransanın "Nexter", "Thales", "CS Communication", "Lacroix" və Türkiyənin "TAİ" şirkətlərinin rəhbərləri ilə görüşüb. Görüşlərdə hərbi-texniki əməkdaşlığa dair məsələlər müzakirə edilib. "Nexter" şirkətinin rəhbərliyi ilə görüşdə müxtəlif növ müdafiə təyinatlı məhsulların, o cümlədən Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində mövcud olan istehsal sahələrində təkərli zirehli texnikanın birgə istehsalı, robot texnikası sahəsində dəniz və hava platformaları üzərində müxtəlif növ silahların istehsalı və inteqrasiyası da daxil olmaqla əməkdaşlığın yaradılmasına dair danışıqlar aparılıb. Tərəflər arasında bu layihələrin həyata keçirilməsi üzrə yol xəritəsi müəyyən edilib. Görüşdə "Nexter" şirkətinin ekspertlərinin iyulda Azərbaycana nəzərdə tutulan səfərləri çərçivəsində danışıqların davam etdirilməsinə dair razılıq əldə edilib. "Thales" şirkətinin rəhbərliyi ilə görüşdə Azərbaycanda və qonşu ölkələrdə bu şirkətin məhsullarına texniki xidmətin göstərilməsi və təmiri üzrə birgə regional servis mərkəzinin yaradılmasına dair məsələlər müzakirə edilib. Eyni zamanda, müxtəlif növ aşkaretmə və radiolokasiya sistemlərinin birgə istehsalının yaradılması istiqamətində danışıqlar aparılıb. Müzakirə edilən birgə layihələrin həyata keçirilməsi üçün növbəti addımların atılmasına dair razılıq əldə edilib.

Bununla yanaşı o da məlumdur ki, Azərbaycan Fransanın "MBDA Systems" şirkətinin ölkəmizə ASTER 30 SAMP/T və VL "Mica" hava hücumundan müdafiə sistemlərinin tədarükü üçün danışıqları yekunlaşdırmaq üzrədir. Fransa dövləti bu müdafiə sistemlərinin Azərbaycana satılmasına icazə verib. Bu, Azərbaycanın cididi diplomatik-hərbi nailiyyəti hesab edilə bilər. Çünki ilk dəfədir ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Qərb ölkəsi, eyni zamanda Minsk Qrupuna həmsədrlik edən Avropa nəhəngi Fransa Azərbaycana, müdafiə təyinatlı da olsa, müasir silah sistemlərinin satılmasına razılıq verir. Məhz bu məqam da Ermənistanda şok effekti yaradır. Erməni hərbi ekspert Van Ambartsumyan bununla bağlı bildirib: "Azərbaycan mühüm hərbi uğurlar əldə edir. Fransa Azərbaycana ASTER 30 SAMP/T və VL "Mica" komplekslərini satır. Azərbaycan silahlanmasını genişləndirir. Hazırda çox vacib hadisə baş verməkdədir. Ermənistanın dostu, NATO-ya üzv ölkə olan Fransa ASTER 30 SAMP/T və VL "Mica" zenit raket komplekslərini Azərbaycana satır. Bu raket kompleksləri 100 kilometr məsafə dərinliyədək məhvetmə qabiliyyətinə malikdir. Hədəf kimi ballistik raketlər, o cümlədən "İsgəndər" raketləri, qanadlı raketlər, təyyarə və helikopterlərin olduğu bildirilir. Bu raketlər Fransa istehsalıdır və ən yaxşı raket sinfindən hesab olunur". İrəvanda bu narahatlığa baxmayaraq, Fransanın "Eurosam" şirkətinin Biznes Təkmilləşdirmə və İxrac üzrə meneceri Filip Çopin ölkəmizlə hərbi əməkdaşlığın daha da dərinləşməsində maraqlı olduqlarını bildirib: "Azərbaycanın tələblərinə cavab verəcək müxtəlif məhsullar üzərində işləyir və təkliflər edirik. Şirkətimizin baş qərargahı Parisin cənubunda yerləşir və 100-ə yaxın idarə heyəti var. Şirkətin investorları Avropanın ən böyük və ən təcrübəli müdafiə kontraktorlarıdır". ASTER 30 SAMP/T raketlərinin Azərbaycana satışı barədə məsələlərə də toxunan şirkət nümayəndəsi ölkəmizin tələblərinə cavab verən məhsulların üzərində işləndiyini vurğulayıb. Onun sözlərinə görə, hazırda şirkətin raketləri və raket sistemləri 4 ölkəni - Fransa, İtaliya, Səudiyyə Ərəbistanı və Böyük Britaniyanı təchiz edir. Ekspertlər isə Fransadan alınan yeni texnologiyalar sayəsində Azərbaycanın hərbi üstünlüyünün daha da artacağını proqnozlaşdırır.

Ümumiyyətlə, Fransa-Azərbaycan əlaqələri, xüsusilə də hərbi-texniki sahədə əməkdaşlıq umumilikdə müsbət dinamikaya malikdir və artıq bir neçə ildir ki, yüksələn xətt üzrə inkişaf edir. Ermənilərin xüsusi narahatlıqla yanaşdığı Fransanın "Nexter" şirkəti ilə ölkəmizin əməkdaşlığı qarşılıqlı əlaqələrə növbəti təkan verən amil sayılır. Məlumat üçün bildirək ki, bu şirkət dünya ordularının yüksək texnologiyalı müdafiə məhsullarının hazırlanması və istehsalı sahəsində yaranan tələbatını qarşılamaq üçün yaradılıb. "Nexter" bütün qoşun növləri üçün yüngül zirehli avtomobildən ağır tanka qədər istənilən sinifdən olan vasitələrin, artilleriya və təyinatlı topların, onların quraşdırıldığı turellərin, idarətmə sistemlərinin, müxtəlif optik avadanlıqların, robotların, kimyəvi mühafizə vasitələrinin, orta və böyük çaplı sursatların istehsalı ilə məşğul olur. Ümumilikdə "Nexter" şirkəti Fransa ordusunun istifadəsində olan əsas dəniz, quru və hava vasitələrində istifadə edilən silah sistemlərinin və onların sursatlarının əksəriyyətini tədarük etməklə eyni zamanda dünya silah bazarında 20-155 millimetr top və mərmilərin ən böyük istehsalçılarından biri hesab edilir. Yeri gəlmişkən, Azərbaycan Hərbi Dəniz Qüvvələri üçün "Naval" şirkəti ilə birgə inşa edilən OPV-90 gəmisinin silahlanmasında "Nexter" məhsulu olan NARWHAL məsafədən idarəolunan silah modulu da yer alır. "Nexter" şirkətinin Qafqazda məhz Azərbaycana maraq göstərməsi həm də rəsmi Bakının KTMT və NATO ilə normal münasibətləri və şəffaf siyasi mövqeyi, mövcud istehsal potensialı, idxal-ixrac imkanları, xammal bazası, alıcılıq və sərmayə qabiliyyəti və digər bu kimi vacib amillərlə sıx bağlıdır. Azərbaycan isə, təbii ki, "Nexter" kimi nəhəng bir şirkətin silahların layihələndirilməsi, inkişaf etdirilməsi və istehsalı sahəsində təcrübəsindən yararlanmaqla, müasir təcrübə əldə etməklə, cəlb olunduğu münaqişədə tələb olunan yeni silah və sursatları əldə etməklə bərabər onların istehsal və ixracında yaxından iştirak etməkdə maraqlıdır. Təbii ki, hadisələrin bu səpkidə inkişafını ermənilər özləri üçün ciddi təhdid sayır. Bununla belə, Azərbaycanın hərbi-texniki sahədə əməkdaşlıq etdiyi Avropa ölkələrinin sayı getdikcə artır. Onlardan biri olan İtaliya hərbi müstəvidə də ölkəmizlə sıx əməkdaşlıq qurub. Bu ölkənin "Leonardo" şirkəti artıq hərbi müstəvdə ölkəmizlə genişmiqyaslı əməkdaşlıq da qurub. "Leonardo" şirkətinin məhsulu olan reaktiv təlim-məşq təyyarələri ordumuzun ixtiyarına verilib. Şirkətin təmsilçisi Lorenzo Mariani qeyd edib ki, "Leonardo" Müdafiə Sənayesi Nazirliyi ilə əməkdaşlığını İtaliya - Azərbaycan münasibətlərinə uyğun davam etdirmək və bu istiqamətdə öz töhfəsini vermək niyyətindədir. Qeyd edək ki, "Leonardo" şirkəti müdafiə və təhlükəsizlik sahəsində müxtəlif çeşiddə məhsulların yaradılması və istehsalı üzrə tanınan şirkətlərdəndir. "Leonardo" geniş çeşiddə təlim-məşq təyyarələri, kommersiya, mülki, təhlükəsizlik və müdafiə məqsədli helikopterlərin ən geniş çeşidlərinin dizaynı, inkişafı, sınaqları, istehsalı, servisi və satışı ilə məşğul olur.

Şirkət "Black Arrow", "Black Scarpion", MU90 kimi dəniz torpedolarını, müxtəlif çaplı artilleriya sistemləri və onların sursatlarını, təhlükəsizlik, informasiya, infrastruktur və ərazilərin mühafizəsi sistemlərinin istehsalını da həyata keçirir.

Ötən il isə Almaniyanın "Rheinmetall" hərbi sənaye korporasiyası Azərbaycanla əməkdaşlıq barədə danışıqlar apardığını elan edib. "Rheinmetall" korporasiyası müxtəlif tipli ağır və yüngül zirehli döyüş texnikası, iriçaplı artilleriya sistemləri, minaatanlar və müxtəlif digər silahlar istehsal edir. Bütün bunlar onu göstərir ki, Azərbaycan artıq inkişaf etmiş Qərb dövlətlərindən silah sistemlərinin alınmasını uğurla həyata keçirir. Təbii ki, bu hal Dağlıq Qarabağ münaqişəsinin həlli hərbi müstəviyə keçəcəyi təqdirdə Azərbaycanın daha böyük üstünlüyə malik olmasına gətirib çıxarır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Əl çəkmədiyi işğalçılıq siyasəti üzündən regionda təcrid vəziyyətində yaşayan Ermənistan sosial-iqtisadi müstəvidə getdikcə daha böyük problemlərlə üzləşməyə başlayır. Söhbət Ermənistana yatırılan sərmayələrin sürətlə azalması, erməni lobbisinin də bu ölkədən üz döndərməsindən gedir.**

# Ermənistan yeni sosial partlayış ərəfəsində - təhlükənin ilk işartıları Alaverdidə görünməyə başladı

## *Olan-qalan investorlar da ölkəni sürətlə tərk edir*



Belə bir vaxtda hakimiyyətə yiyələnən Nikol Paşinyanın ölkəni diktatura qaydaları ilə idarə etməsi də potensial sərmayədarları ciddi narahat edir. Elə bu fonda Avrasiya İnkişaf Bankı Ermənistana investisiya proqramını dayandırıb. Bu qərar Ermənistanda meyvə və tərəvəzin ixracı ilə məşğul olan ən iri şirkət sayılan "Spayka" şirkətinə qarşı cinayət işi açıldıqdan sonra qəbul edilib.

Erməni mediası bu fonda yazır ki, baş nazir Nikol Paşinyan bir ildən çoxdur ölkəyə investisiya axını vəd edir, amma ortada heç nə yoxdur. Bundan başqa, Paşinyan hərəkətləri ilə Ermənistanda əvvəllər işləyən investorları da küsdürür. Nəticədə 2019-cu ilin ilk rübündə Ermənistan iqtisadiyyatına xarici sərmayə qoyuluşu ötən ilin müvafiq dövrü ilə müqayisədə on dəfədən çox azalıb. Ermənistan Statistika Komitəsi də bildirir ki, 2019-cu ildə birbaşa sərmayələrin həcmi 37 milyard dram azalıb. Yəni 2018-ci ilin birinci rübündə bu göstərici 40 milyard dramdan çox idisə, cari ilin müvafiq dövründə cəmi 3 milyard, 317 milyon olub. Erməni iqtisadçılarının sözlərinə görə, bu kəskin azalmanın səbəblərindən biri Amulsar qızıl mədəninin fəaliyyətinin dayanması olubsa, əsas səbəb Ermənistanda "məxməri inqilab"dan bir il sonra davam edən qeyri-sabitlik və vergi sistemindəki uyğunsuzluqlardır. Qeyd olunur ki, xarici sərmayəçilər ölkədəki daxili siyasi vəziyyətə çox həssas yanaşır. Bundan başqa, "kölgə iqtisadiyyatı", real rəqabət mühitinin, sərmayəçilər üçün güzəştlərin olmaması da iqtisadiyyata xarici sərmayələrin cəlb olunmasının qarşısını alan amillərdir. Eyni zamanda, müxtəlif vaxtlarda verilən vədlərə baxmayaraq, hökumət hələ də azad iqtisadi zonaların yaradılması üzrə heç bir konkret addım atmayıb. Ən başlıcası isə, Nikol Paşinyanın da qeyd etdiyi kimi, Ermənistanda müstəqil məhkəmə sisteminin yoxluğu da bu məsələdə mənfi amillərdən birinə çevrilib.

Korrupsiya hallarının genişlənməsi də burada öz sözünü deyir. Məsələn, Ermənistanın baş prokuroru yanında komissiya 2018-ci ilin yanvarından 2019-cu ilin iyununadək sosial təminat sistemində olan korrupsiya hallarını təhlil edib. Həmin dövrdə sosial təminat idarələrində rüşvət halları ilə bağlı 166 cinayət işi qaldırılıb. Təhlil göstərib ki, korrupsiya bütün ölkəni əhatə edib. Məlumata görə, bir sıra vətəndaşlar sosial müavinət almaq üçün rüşvət veriblər. Bundan başqa, yüzlərlə insan bu siyahılara daxil edilib, lakin özlərinin bundan xəbəri olmayıb. Onların əvəzinə sosial müavinətləri sosial təminat xidmətlərinin əməkdaşları alıb. Korrupsiya əməllərində vilayət administrasiyalarının əməkdaşları, şəhər meriyalarının sosial təminat şöbələrinin ərazi idarələrinin rəisləri və aparıcı mütəxəssisləri, poçt şöbələrinin rəhbərləri də iştirak edib. Bu halın digər sahələrdə də yayılması investorları ciddi narahat edir. Politoloq Armen Badalyan qeyd edir ki, Paşinyan hökumətinin daxilində çəkişmələr də getdikcə artır və bu da sərmayədarları ölkədən qaçırır. Erməni politoloq "məxməri inqilab"ın Ermənistanda oliqarxların kənarlaşdırılması və bir adamın hakimiyyətinin bərqərar olması ilə nəticələndiyini bildirib. Onun sözlərinə görə, Paşinyanın özü də partiyasının heç bir ideoloji əsaslara söykənmədiyini etiraf edib. Bu isə, öz növbəsində, yüksək vəzifələrə təyinatların baş nazirə yaxınlıq prinsipi ilə həyata keçirilməsinə səbəb olur. Politoloq hesab edir ki, bu cür şəraitdə hakimiyyətdaxili mübarizənin güclənməsi labüddür. Erməni politoloq yaranmış vəziyyətin daha bir təhlükəli nüansını diqqətə çatdırıb. Belə ki, Paşinyanın ölkənin rayonlarında olan bəzi tərəfdarları həm yüksək nüfuza, həm də silahlı dəstələrə malikdirlər. O bu durumda Ermənistana sərmayə qoymağa heç kimin risq etməyəcəyini də xüsusi qeyd edir. Onun fikrincə, bu durumda Ermənistan hər an partlayacaq bombanı xatırladır: "Ölkə əhalisi iş tapa bilmir, çətin şərtlər altında həyatlarına davam edirlər. Bu da sosial etirazları gücləndirir. Paşinyan indiyədək hakimiyyətdəki yerini möhkəmləndirməkdən başqa heç nə etməyib. Ölkədə heç bir irimiqyaslı layihə həyata keçirilmir. İnsanların yaşayış səviyyəsi həddindən artıq ağırdır. Artıq Ermənistanın dövlət borcu 7 milyard dollar təşkil edir. Durmadan artan bu rəqəm Ermənistanı iqtisadi kollapsa gətirib çıxaracaq. Təbii ki, bu da investorları daha ehtiyatlı mövqe tutmağa sövq edir".

Bununla yanaşı, ölkədə sosial narazılıq, xüsusən də Alaverdi Misəritmə Kombinatı ilə bağlı yaşananlar sərmayədarlar üçün təhlükəli sayılır. Çünki Ermənistanda növbəti sosial inqilabın elə Alaverdidən başlana biləcəyi istisna edilmir.

Xatırladaq ki, bu günlərdə Alaverdi Misəritmə Kombinatının işdən çıxarılan fəhlələri etiraz əlaməti olaraq Ermənistan-Gürcüstan dəmir yolunu bağlayıb. Fəhlələrin belə bir yola əl atmasına səbəb misəritmə zavodunun sahibi olan "Valleks" şirkətlər qrupunun işdən çıxardığı fəhlələrə iyun ayınadək maaşlarının ödəniləcəyi barədə verdiyi vədi yerinə yetirməməsidir.

İşdən qanunsuz çıxarıldıqlarını iddia edən fəhlələr Gürcüstana gedən dəmir yolunu kəsib. Onlar problemin həll edilməsi üçün hökumətin məsələyə müdaxilə etməsini və maaşlarının ödənilməsini tələb edirlər. Hökumətdən etirazçıların tələblərinə cavab gəlməyib.

Qeyd edək ki, Alaverdi Misəritmə Kombinatı ötən ilin oktyabrında hökumətlə banklar arasında yaranan maliyyə problemləri səbəbindən fəaliyyətini dayandırıb. Təqribən 600 fəhlənin işlədiyi bu müəssisə sonradan xaricdə emal olunan mis yarımfabrikatlar istehsal edirdi. Bu məhsullar Ermənistan büdcəsinə gəlir gətirən on ixrac malları siyahısına daxildir. İndilikdə isə Ermənistanın Alaverdi Misəritmə Kombinatı və Texut mədəninin bağlanması ilə əlaqədar Alaverdi rayonu və ona yaxın kəndlərdə sosial partlayışın baş verəcəyi gözlənilir. Bu barədə Ermənistanda çıxan "Past" qəzeti yazır ki, hakimiyyətin bu müəssisələrin fəaliyyətini dayandırmasına etiraz olaraq şəhərin bütün lojistik sistemi mühasirəyə alınıb, bir neçə avtomobil yolu və dəmir yolu bağlanıb. Alaverdi Misəritmə Kombinatının əməkdaşları paytaxtda yürüşü də istisna etmir. "Past" qəzeti yazır ki, bu hal ağır sosial-iqtisadi durumu nümayiş etdirməklə yanaşı, investorların da ölkədən gedişini sürətləndirir.

***Nahid SALAYEV***

# UNESCO bütün gücünü Dağlıq Qarabağda ermənilərin məhv etdiyi tarix-mədəniyyət abidələrinə yönəldəcək

**Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan ərazilərində abidələrimizə qarşı həyata keçirlən vandalizm hərəkətləri, saxtalaşdırma aktları barədə kifayət qədər faktlarımız olsa da, hələ də beynəlxalq qurumlar dünyada qəbul edilən hüquq normalarına uyğun şəkildə ermənilərin bu təxribatçı davranışlarına qarşı heç bir tədbir görməyiblər.**




## **Faiq Ismayılov:** *"Bu müzakirələr nəticəsiz olmayacaq və UNESCO tərəfindən işğal altındakı abidələrimizin nəzarətə götürülməsinə nail olacağıq"*

Ermənilərin Azərbaycan abidələrinə qarşı törətdikləri vəhşiliklərin bütün beynəlxalq konvensiyalara zidd olduğu məlumdur. Dünyanın heç bir yerində işğal edilmiş ərazilərdə abidələrə qarşı belə davranış göstərilmir. Amma ermənilər abidələrimizin başına hər cür oyun açırlar.

Məlum olduğu kimi, Bakının evsahibliyi ilə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası öz işini davam etdirir. Bakı sessiyasında UNESCO üzvü olan ölkələrin təhlükə altında olan abidələri ilə bağlı müxtəlif panellərdə müzakirələr aparılır. Sessiyada erməni işğalı altında olan abidələrimizin də taleyi, vəziyyəti ciddi müzakirə mövzusudur. Bu istiqamətdə müzakirələr aparılır, çıxışlar edilir. Əlbəttə, işğal altındakı abidələrimizin taleyi yalnız bizi deyil, həm də beynəlxalq ictimaiyyəti ciddi narahat etməlidir. Çünki bu abidələr bəşər mədəniyyətinin çox qiymətli örnəkləridir, onların da bir qismi ermənilər tərəfindən dağıdılıb, bir qismi saxtalaşdırılıb, bir qismi isə qanunsuz olaraq konservasiya edilib. Bütün bunlar onu göstərir ki, ermənilər bu qanunsuz əməlləri ilə bizim izimizi o torpaqlardan silmək istəyirlər. Amma sözsüz ki, onların bu cəhdləri də uğursuzluğa düçardır.

Bakı sessiyasından gözləntilərimizdən biri işğal altındakı abidələrimizlə bağlı idi və artıq UNESCO da buna münasibət bildirib. Mədəniyyət naziri Əbülfəs Qarayevin bildirdiyinə görə, UNESCO Dağlıq Qarabağdakı tarixi abidələrlə bağlı daha ciddi addımların atılmasına hazır olduğunu bildirib. "Biz Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində olan mədəni irs nümunələri ilə bağlı məsələni ciddi şəkildə UNESCO-nun bütün üzvlərinin qarşısında qoyuruq, onları məlumatlandırırıq. Artıq UNESCO-nun baş direktoru Odre Azule Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Bakıda olarkən həm cənab Prezident İlham Əliyev, həm də Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşlərində də bu məsələ qaldırılıb. UNESCO Dağlıq Qarabağdakı tarixi abidələrlə bağlı daha ciddi addımların atılmasına hazır olduğunu bildirib və bu iş UNESCO ilə bizim diplomatlar arasında müzakirə olunacaq".

Ə.Qarayev onu da qeyd edib ki, bu, sadə proses deyil. "Amma əsas odur ki, Azərbaycan reallığı və işğal altında olan torpaqlarımızda mədəni sərvətlərimizin vəziyyətinin bizi narahat etməsi onlara tam aydın oldu. Biz UNESCO-nun fəal üzvlərindən biri olduğumuz üçün, təşkilat bu vəziyyətə biganə yanaşa bilməz. Ümidvarıq ki, sessiya uğurla başa çatandan sonra növbəti bir neçə ay ərzində də müzakirələri davam etdirəcəyik" - deyə nazir vurğulayıb.

*"... abidələrimizə qarşı törədilən erməni vəhşiliyinin qarşısını ala biləcək"*

Söhbət UNESCO-nun atacağı hansı addımlardan gedə bilər? UNESCO konkret olaraq işğal altındakı abidələrlə bağlı hansı addımları atmalıdır?

**Azərbaycanın işğal olunmuş ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələ ilə bağlı UNESCO-nun da, digər beynəlxalq aidiyyəti qurumların da əməli iş görməsi arzuediləndir.** O vurğuladı ki, Memarlar İttifaqının sədri Elbay Qasımzadə ilə birgə sessiya çərçivəsində işğal altında olan abidələrimizlə bağlı sərginin keçirilməsi təşəbbüsünü qaldırıb, lakin hələ sərgi açılmayıb. "UNESCO-nun Azərbaycanın işğal altındakı tarix-mədəniyyət abidələrinə verə biləcəyi töhfə bu abidələrin mühafizəsini möhkəmləndirməkdən və həmin abidələrin erməniləşdirilməsinin, onların bir yerdən başqa yerə köçürülməsinin, formasının dəyişdirilməsinin qarşısının alınmasından ibarət ola bilər. Bu da əsaslanır 1954-cü ildə qəbul edilən Haaqa Konvensiyasına. Həmin konvesiyaya görə, üzv olan dövlətlər öhdəlik götürüblər ki, bir dövlət başqa dövlətin ərazisini işğal etsə belə, o, abidələrin formasının dəyişdirilməsinin, bir yerdən başqa yerə daşınmasının, uçurulub dağıdılmasının, vandalizmə uğradılmasının qarşısını almalıdır. Bu baxımdan, UNESCO-nun Bakı sessiyasını çox əhəmiyyətli hesab edirəm. Azərbaycan diplomatlarının UNESCO-nun baş direktoru, eləcə də təşkilat üzvləri ilə keçirəcəyi görüşlər işğal altındakı abidələrimizə göstərilən bir münasibət olacaq. İyulun 5-də və 6-da bununla bağlı müzakirələr keçiriləcək. Mən də həmin müzakirəyə dəvət edilmişəm.

Hesab edirəm ki, bu müzakirələr nəticəsiz olmayacaq və UNESCO tərəfindən işğal altındakı abidələrimizin nəzarətə götürülməsinə nail olacağıq. UNESCO Dağlıq Qarabağdakı tarixi abidələrlə bağlı daha ciddi addımların atılmasına hazır olduğunu bəyan edib və düşünürəm ki, bu qurum erməni vandalizminə məruz qalan abidələrimizlə bağlı tədbir görəcək, tarix-mədəniyyət abidələrimizə qarşı törədilən erməni vəhşiliyinin qarşısını ala biləcək" - deyə F.İsmayılov bildirdi.

***İradə SARIYEVA***

**Son günlərdə dünya iqtisadiyyatında baş verənlər, eləcə də okeanın o tayından gələn xəbərlər hələ də dünyanın bir nömrəli valyutası sayılan dolların yaxın günlərdə əhəmiyyətli dərəcədə ucuzlaşacağını göstərir. Məsələ burasındadır ki, qarşılıqlı ticarətdə dollardan imtina edən ölkələrin sayı sürətlə artır, eyni zamanda dolları ehtiyat valyuta kimi yığmaq istəyənlər də tədricən onu başqa pullarla, əsasən də qızılla əvəz edirlər.**

# Dolların ehtiyat valyuta statusu təhlükədə... Azərbaycan valyuta ehtiyatlarındakı dolların bir hissəsini qızıl və digər valyutalarla əvəzləyə bilər

Hazırda böyük iqtisadiyyata malik ölkələr kimi Rusiya, Çin, Türkiyə, İran, Hindistan, bir sıra Asiya, Latın Amerikası ölkələri dollardan imtina edir. Hətta bu günlərdə Rusiya və Çin milli valyutalarda hesablaşmalara keçid haqqında hökumətlərarası razılaşma imzalayıb. Müvafiq sənəd Rusiya maliyyə naziri Anton Siluanov və Çin Mərkəzi bankının sədri İ Qan tərəfindən imzalanıb.

Rusiya maliyyə nazirinin müavini Sergey Storçakın müvafiq məktubundan məlum olur ki, tərəflər sazişi hələ iyunun 5-də imzalayıblar. Məktubda qeyd olunur ki, hazırda Rusiya və Çin müəssisələri arasında yeni hesablaşma mexanizmləri yaradılır. Qeyd olunur ki, tərəflər arasında milli valyutalarda hesablaşmaların artırılması üçün rubl və maliyyə alətləri bazarının yaradılması önəmlidir. Yaxın gələcəkdə Çinlə hesablaşmalarda rublun payı 50%-ə çata bilər. Hazırda isə bu rəqəm 10% civarındadır. O da vurğulanır ki, tərəflər artıq dollarla bağladığı müqavilələr üzrə də hesablaşmalarda rubl və yuana keçə bilər. Məhz belə bir vaxtda Rusiya Mərkəzi Bankı ehtiyatlarını geosiyasi risqlərdən sığortalamaq məqsədilə iri həcmdə Çin yuanı almağa başlayıb. Hazırda Çində iqtisadi artım inkişaf etmiş ölkələri üstələdiyi üçün yuanı ehtiyat valyuta olaraq perspektivli hesab etdiklərini qeyd edən Mərkəzi Bankın sədri Elvira Nabiulina Rusiya ilə Çin arasında strateji tərəfdaşlığı da bu seçimdə mühüm amil olaraq dəyərləndirib. Bundan öncə isə Rusiya prezidenti Vladimir Putin də bəyan edib ki, dünyada dollara inam azalır. Putinin sözlərinə görə, bunda elə ABŞ hökumətinin özü günahkardır.

O, dolların dünyadakı rolunu yenidən nəzərdən keçirməyə çağırıb: "Bu dərin dəyişikliklər beynəlxalq maliyyə qurumlarının uyğunlaşmasını, dolların rolunun təkrar nəzərdən keçirilməsini tələb edir. Beynəlxalq ehtiyat valyutası olan dollar indi emitent-ölkənin dünyanın digər ölkələrinə təzyiq vasitəsi halına gəlib". Rusiya dövlət başçısı, həmçinin, hazırda regional valyutaların rolunun artdığını vurğulayıb. Son zamanlar qarşılıqlı ticarətdə milli valyutalardan istfiadə edən ölkələrin sayı artır. Prosesin genişlənməsi və ona digər ölkələrin də qoşulması dollar üçün ciddi təhdid sayılır.



Bu arada Birləşmiş Ştatların ən böyük maliyyə institutlarından olan "Bank of America" ABŞ administrasiyasının milli valyutanı devalvasiya etmək niyyəti haqqında xəbərdarlıq edib. "Bank of America"da düşünürlər ki, Donald Tramp valyutaya müdaxilə qərarını iqtisadiyyatın sabitləşdirilməsi şüarı altında qəbul edəcək. Bankın ekspertləri bildirir: "Federal Ehtiyat Sisteminin (FED) faiz dərəcələrini azaltması kifayət etməsə, valyuta müdaxiləsi ehtimalı böyüyəcək". Bankın analitikləri Xəzinə Nazirliyindən təlimat gələn kimi Nyu York Mərkəzi Bankının dolları sataraq başqa valyutalar almağa başlayacağını və nəticədə dolların ucuzlaşacağını açıqlayıb. Qeyd olunur ki, Tramp açıq şəkildə "güclü dollar" siyasətindən imtina edib. Onun fikrincə, həddindən çox bahalı dollar Amerika istehsalı olan məhsulların və xidmətlərin ixracına mane olur və ticarət balansında mövcud defisiti daha da dərinləşdirir. Maraqlıdır, dolların zəifləməsi dünya ölkələrinin, o cümlədən Azərbaycanın iqtisadiyyatına necə təsir edəcək? İqtisadçı-ekspert Natiq Cəfərli bildirir ki, 2 ilə yaxın müddət ərzində FED faiz dərəcəsini 0%-dən 2,5% səviyyəsinə qaldırıb: "ABŞ prezidenti faizin aşağı salınmasını istəyir. Yəni pul ucuzlaşsın, kreditlər ucuzlaşsın, ABŞ iqtisadiyyatında dinamika artsın, kredit götürənlərin həcmi çoxalsın. Bu da ABŞ-da iqtisadiyyatın daha da canlanmasına səbəb olacaq. Burada söhbət FED-in uçot dərəcəsini aşağı salması hesabına dolların digər valyutalar qarşısında ucuzlaşmasından gedir. Ucuz dollar ABŞ ixracatına dəstək verəcək və ticarət dövriyyəsinin artmasına səbəb olacaq. Bir neçə il bundan qabaq dollar avro qarşısında ucuz olanda hətta Avropadan ABŞ-a alış-veriş turları təşkil edilirdi. Avropada mal və məhsullar çox baha olduğuna görə insanlar bazarlıq etmək üçün Birləşmiş Ştatlara gedirdilər. Bu nöqteyi-nəzərdən ABŞ iqtisadiyyatının c a n l a n m a s ı düşünülür". Onun sözlərinə görə, FED-in bu ilin sentyabr ayında keçiriləcək toplantısında faizləri aşağı salma ehtimalı yüksəkdir: "FED faizləri aşağı salsa, dolların digər valyutalar qarşısındakı indeksi ucuzlaşacaq. Bu, ABŞ iqtisadiyyatına ciddi dəstək ola bilər". Ekspertin fikrincə, dolların ucuz olması ABŞ-a sərf edir, bu ölkənin ixracatını stimullaşdırır: "Amma ABŞ qəsdən dolları ucuzlaşdırsa, bunu valyuta müharibəsinə çevirsə, o zaman Çin, Avropa İttifaqı ölkələri də eyni addımı ata bilər. Bu isə dünyada valyuta müharibələrinin genişlənməsinə səbəb ola bilər. Dolların ucuzlaşmasının neftin qiymətinə həmişə müsbət təsiri olur. Bu, ən azı, neftin qiymətində ucuzlaşmanın qarşısını alan faktora çevrilir. Çünki ucuz dollar baha neft deməkdir".

Azərbaycana təsirlərinə gəlincə, ekspert bildirib ki, bu proseslərin ölkəmizə birbaşa təsiri yoxdur: "Çünki Azərbaycanda tənzimlənən məzənnə rejimidir". Qeyd edək ki, dolların daha da zəifləməsi onun ehtiyat valyuta kimi statusunu təhlükə altına atır. Xarici kreditorlar artıq sürətli şəkildə dollardan imtina edir. Onun ümumdünya valyuta ehtiyatlarında payı əsrin əvvəli ilə müqayisədə ən aşağı həddə çatıb. 2008-ci ilin maliyyə böhranı zamanı dünyanın mərkəzi banklarının ehtiyatlarında ABŞ valyutasının payı ən yüksək səviyyədə idi. Həmin dövrdən bəri isə onun payı 7 faiz bəndi azalıb. Onu da qeyd edək ki, ekspertlər FED-in bu il iki dəfə faiz endiriminə gedəcəyini gözləyir. Məhz bu şəraitdə dolların əhəmiyyətli dərəcədə dəyər itirməsi gözlənilir. Belə bir vaxtda ölkələrin dollar ehtiyatını digər valyutalarla əvəzləməsi daha sürətli xarakter ala bilər.

**Qeyd edək ki, Azərbaycanın strateji valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 6,2% artaraq 48 milyard dollara çatıb. Həmin vəsaitin təxminən yarısı dollarda saxlanır və hesab edilir ki, Azərbaycan dolların bir hissəsəini qızıl və digər valyutalarla əvəzləyəcək.**

***Tahir TAĞIYEV***

**Məlum olduğu kimi, Prezident İlham Əliyev sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsi haqqında fərman imzalayıb.**

# Azərbaycanda xaricilərin maliyyələşdirdiyi proqramların əlaqələndirilməsi barədə Prezident fərmanı nəyə xidmət edəcək?

***Fikrət Yusifov:** "Xarici iş adamlarına Azərbaycandakı kiçik və orta sahibkarlığın inkişafı üçün hansı sahəyə yatırım edilməsi üzrə istiqamətlər müəyyən olunmalıdır"*

Fərmana əsasən, xarici dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə kredit, texniki yardım və ya qrant formasında maliyyələşdirdikləri proqramlar (layihələr) Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə əlaqəli şəkildə həyata keçiriləcək.

Nazirlər Kabineti mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi məqsədilə xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla bağlanan kredit, texniki yardım və ya qrant alınmasına dair sazişlərə əsasən həyata keçirilən proqramlara (layihələrə) KOBİA-nın cəlb olunmasını təmin edəcək.

**Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların əhəmiyyəti barəsində fikir bildirən iqtisadçı-ekspert Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün məlum fərmanın imzalanması əhəmiyyətlidir:** "Kiçik və orta sahibkarlığın inkişafı üçün xaricdən cəlb olunan vəsaitin idarə olunması, eyni zamanda, həmin vəsait haqqında məlumatların toplanması baxımından belə bir fərmanın imzalanması mühümdur. Xaricdən kiçik və orta sahibkarlığa göstərilən dəstəyin dəyərləndirilməsi baxımından belə bir fərmanın imzalanması vacibdir". Həmsöhbətimiz onu da vurğuladı ki, xarici iş adamlarına Azərbaycandakı kiçik və orta sahibkarlığın inkişafı üçün hansı sahəyə yatırım edilməsi üzrə istiqamətlər müəyyən olunmalıdır. İstiqamətlərin təkliflər formasında xarici iş adamlarına verilməsi zəruridir: "Belə bir səpkidə fərmanın imzalanması kiçik və orta sahibkarlığın idarə olunmasında və inkişafında mühüm rol oynayacaq".



***Günel CƏLİLOVA***

---

**2019-cu il may ayının 1-nə əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,6 faiz artaraq 8 milyard 715 milyon manat təşkil edib. Əmanətlərin 58,5 faizi xarici, 41,5 faizi isə milli valyutada qoyulub. Milli valyutada olan əmanətlər ötən ilin müvafiq dövrünə nisbətən 25,4 faiz, xarici valyutada əmanətlər isə 2 faiz artıb.**

# Əhalinin manat əmanətlərindən dollar əmanətlərinə dönmək təhlükəsi yenidən reallaşır...

*"Ancaq bu o demək deyil ki, əmanətlərin dollarda saxlanmasına maraq artacaq"*

***Əli Əlirzayev:** "Əmanətlər üzrə faiz dərəcələrinin aşağı salınması əmanətlərin manatda saxlanmasına stimulu azaldacaq"*

O da məlumdur ki, iyulun 1-dən etibarən milli valyutada olan qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 10 faiz, xarici valyutada isə 2,5 faiz müəyyən edilib. Belə ki, Əmanətlərin Sığortalanması Fondundan verilən məlumata görə, qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi milli valyutada 15 faiz, xarici valyutada isə 3 faiz təşkil edir və bu qaydaya uyğun qorunan əmanət statusunda olan depozitlərin sığortası əmanət müqaviləsinin müddəti bitənədək qüvvədə qalır.

Həmçinin, iyulun 1-dən Əmanətlərin Sığortalanması Fonduna üzv olan banklarda milli valyutada 10 faizdən, xarici valyutada 2,5 faizdən yuxarı illik faiz dərəcəsi ilə əmanət yerləşdirilərsə, bu əmanətlər ƏSF tərəfindən sığorta olunmur və onlara görə kompensasiya ödənilmir.

Bu arada cəmiyyətdə belə fikirlər səslənir ki, məlum qərardan sonra yığım zamanı xarici valyutalara maraq yenidən arta bilər. Yəni insanlar əmanətlərini banklarda dollarla saxlamağa maraq göstərəcək. Əvvəl faiz yüksək olduğundan, əhali əmanətləri manatda saxlamağa üstünlük verirdi.

Maraqlıdır, qorunan əmanətlər üzrə faiz dərəcələrinin aşağı salınması vətəndaşların manatda saxladığı əmanətlərin yenidən dollarda və digər valyutalarda saxlanmasına təsir edə bilərmi? Bununla bağlı səslənən fikirlər nə dərəcədə realdır?

**Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayev buna bir neçə rakursdan yanaşdı:** "Əmanətlər üzrə faiz dərəcələrinin aşağı salınması əmanətlərin manatda saxlanmasına stimulu azaldacaq. Heç kəs istəməz ki, aparıb əmanətini 7-10 faizlə banka qoysun, ildə bir dəfə gedib-gəlsin. Ancaq bu o demək deyil ki, əmanətlərin dollarda saxlanmasına maraq artacaq. Niyə? Ona görə ki, dollarla qoyulan əmanətlərin faizi çox aşağıdır. Xarici valyutada bu, 3 faiz təşkil edir. Ona görə də bu yöndə elə bir maraq artmayacaq. Fikrimcə, əhali ya daxildə daha çox borc verməklə məşğul olacaq, ya da vəsaitləri evdə saxlayacaqlar. İstənilən halda, bütün bunlarda bir qanunauyğunluq var. Əmanəti ona görə banka qoyurlar ki, ondan gəlir gəlsin.

**Bundan gəlir əldə etmirsə, o zaman bunda maraqlı olmayacaq. Onda gərək verilən kreditlərin faizi də aşağı olsun. Kredit faizləri aşağı düşməyəcəksə, o zaman banklara əmanət qoyuluşunda maraq da azalacaq. Yəni bütün bunlar bir-birilə bağlıdır".**



***Vidadi ORDAHALLI***

# Universitetlər informasiya texnologiyaları ixtisasları ilə dolu, hərbidə mütəxəssis çatışmazlığı...

**Müasir dövrümüzdə informasiya-kommunikasiya texnologiyalarının təsir dairəsi genişlənərək dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə, cəmiyyəti əhatə edir. Elə buna görə də informasiya texnologiyalarının daha geniş yayıldığı cəmiyyətlər dünyanın ən qabaqcıl cəmiyyətləri sayılır.**



***Tərlan Eyvazov:** "Orduda İKT sahəsi üzrə mükəmməl biliyə malik olan kadr lazımi səviyyədə deyil"*

***Kamran Əsədov:** "...günün tələblərinə cavab verən informasiya yeniliklərindən xəbərsizdirlər"*

***Osman Gündüz:** "Bu sahədə universitetlərdə tədrisin səviyyəsini yüksəltmək lazımdır"*

Belə cəmiyyətlərin əsas üstün cəhətləri İKT-nin kütləvi istifadəsi, qlobal informasiya mühitinin yaradılması və digər bu kimi amillərdir. Artıq dünyanı İKT-nin bəxş etdiyi yeniliklərsiz, o cümlədən, internetsiz təsəvvür etmək qeyri-mümkündür.

Bütün sahələr üzrə informasiya texnologiyaları mütəxəssislərinə ehtiyac var. Hərbi sahədə informasiya texnologiyaları üzrə məşğul olan kadrlara tələbat var. Bu günlərdə müdafiə naziri Zakir Həsənov çıxış edərək bildirdi ki, ordu sahəsində informasiya texnologiyaları mütəxəssislərinə böyük ehtiyac var. Nəzərə almaq lazımdır ki, informasiya texnologiyaları mütəxəssislərinə tək orduda yox, əksər sahələrdə ehtiyac yaranır. Hətta bu məsələ ilə bağlı bir müddət əvvəl İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı UNEC2B əmək bazarı platformasının təqdimat mərasimindəki çıxışında bildirmişdi ki, Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı üçün əmək bazarında 150-200 min İT mütəxəssisi olmalıdır, amma hazırkı bazarda say 1.5 minə yaxındır. Qeyd edək ki, bu sahədə olan mütəxəssis çatışmazlığı nəzərəçarpacaq dərəcədə böyükdür.

Bəllidir ki, bu gün ali təhsil ocaqlarında informasiya texnologiyalarını tədris edən fakültələr yetərincədir. Buna baxmayaraq, əmək bazarında qeyd olunan sahə üzrə kadr çatışmazlığı hələ də yaşanır.

**Hərbçi ekspert Tərlan Eyvazov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün Azərbaycan Ordusunun müasir tələblərə cavab verən hərbi texnikası var.** Bununla yanaşı, ordunun müasir informasiya sahəsi üzrə avadanlıqları da yetərincədir. Ancaq bununla yanaşı, orduda İKT sahəsi üzrə mükəmməl biliyə malik olan kadr lazımi səviyyədə deyil: "Nəzərə almaq lazımdır ki, döyüş tək döyüş meydanında aparılmır, eyni zamanda, informasiya müharibəsi də aparılır. İnformasiya müharibəsi zamanı mütləq şəkildə kompyuter biliklərinə malik olan mütəxəssis olmalıdır. Digər sahələrdə olduğu kimi, hərbidə də informasiya texnologiyaları üzrə hazırlanan mütəxəssislərin sayı artırılmalıdır".

**Təhsil eksperti Kamran Əsədov bildirdi ki, bu sahə üzrə tədrisi həyata keçirən müəllimlər günün tələblərinə cavab verən informasiya yeniliklərindən xəbərsizdirlər:** "Hazırda ölkədə 51 ali təhsil müəssisəsində 164 mindən çox tələbə təhsil alır ki, onların da məhz 40 faizə qədəri texnologiya üzrədir. Yəni burada söhbət sırf kompyuter mütəxəssislərindən yox, eyni zamanda, informasiya texnologiyalarının tətbiqini əhatə edən bütün sahələrdən gedir. Amma təəssüflər olsun ki, bu gün ölkənin informasiya texnologiyaları üzrə kadr hazırlığını həyata keçirən universitetlərinin məzunlarının yalnız 42 faizi əmək bazarında işlə təmin olunur. Bu ona görədir ki, universitetlərdə, xüsusilə də informasiya texnologiyaları sahəsində kadr hazırlayan təhsil müəssisələrində müasir tələblərə cavab verən avadanlıqlar yoxdur. Bu ixtisas üzrə tədrisi həyata keçirən müəllimlər günün tələblərinə cavab verən informasiya yeniliklərindən xəbərsizdirlər. Ona görə də hesab edirəm ki, aidiyyəti dövlət qurumları mütləq şəkildə kadr hazırlığı həyata keçirən təhsil ocaqlarında yoxlamalar aparmalı, keçirilən dərsin müasir əmək bazarına cavab verib-vermədiyini dəqiqləşdirməlidirlər. Təəssüf ki, proqramlaşdırma sahəsi üzrə mütəxəssis bizdə yox səviyyəsindədir. Bunun səbəbi isə universitetlərin maddi-texniki bazasının lazımi səviyyədə qurulmamasıdır. Keyfiyyətli kadr hazırlığı olmadığına görə bazarda boşluq var".

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz hesab edir ki, bu sahədə universitetlərdə tədrisin səviyyəsini yüksəltmək lazımdır: "2014-cü ildə olan devalvasiyadan sonra İT şirkətlərinin bir çoxunda ixtisarlar getdi.** Həmin mütəxəssislərin çoxu xaricə köçdü və bu da İT sahəsinə ciddi zərbə vurdu. Yeni kadrların hazırlığına gəlincə isə universitetlərimizdə bu istiqamətdə müəyyən işlər görülür. Amma hələlik onların məzunları bazarın tələbatını ödəyəcək potensiala, təcrübəyə sahib deyillər. Buradakı problemlərdən biri də tədrisdədir. Belə ki, məzunların əksəriyyəti mütəxəssis kimi yetişmək, əmək bazarında özünə yer tapmaq üçün məcburən universitetdən əlavə kursa gedir. Ona görə də düşünürəm ki, universitetlərdə tədrisin səviyyəsini yüksəltmək lazımdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bazardakı boşluğu aradan qaldırmaq üçün xaricdə bu sahədə təhsil alan gənclərimizi də müəyyən şərtlərlə ölkəyə dəvət etmək olar: "Yeri gəlmişkən onu da qeyd edim ki, ümumiyyətlə, bizdə bu məsələnin kökündən həll edilməsində ciddi problem var. Bu da Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi arasında olan fikir ayrılığından irəli gəlir. Məsələ informatika fənninin tədrisinə olan münasibətdir. Tutaq ki, abituriyent universiteti İT sahəsi üzrə oxumaq istəyir. Amma 11 il orta məktəbdə keçdiyi informatika fənnindən yox, kimyadan imtahan verir. Ona görə də qəbul qaydalarına dəyişiklik edilməlidir. Yəni bu ixtisasa yiyələnmək istəyənlər kimya yerinə informatikadan imtahan verməlidirlər".

***Günel CƏLİLOVA***

# Bakıda ərzaq məhsullarının saxlanması üçün anbar tikintisi gələn il yekunlaşacaq



**Bakıda ərzaq məhsullarının saxlanması üçün iri anbarın tikintisi 2020-ci ilin əvvəlində başa çata bilər. Bunu "Trend"ə "Nabucco Memarlıq və İnşaat" tikinti şirkətinin direktoru Kəmaləddin Məsimov deyib.**

Onun sözlərinə görə, bu günədək metal konstruksiyanın quraşdırılması üzrə işlərin 20 faizi başa çatıb.

Şirkət direktoru bildirib ki, yeni obyektin tikintisində bir neçə Azərbaycan şirkəti iştirak edir: "Hazırda özülün quraşdırılması üzrə beton işləri başa çatıb. Metal konstruksiyası da quraşdırılandan sonra digər Azərbaycan şirkəti obyektin ventilyasiyasının quraşdırılmasına başlayacaq. Obyektin gələn ilin ilk aylarında istifadəyə veriləcəyi gözlənir".

Onun sözlərinə görə, şirkət əsasən şəxsi villalar və digər obyektlərin tikintisi ilə məşğul olur: "Biz əsasən fərdi sifarişçilərlə müqavilə əsasında işləyirik və bu gün müəssisəsimizin əsas gəlir mənbəyi bu sahədir. Eyni zamanda bizim texniki imkanlarımız və kadr potensialımız imkan verir ki, biz istənilən dövlət əhəmiyyətli obyektin tikintisi ilə məşğul olaq. Təəssüf ki, hələlik bununla bağlı sifariş almamışıq, ona görə də bu istiqamətdə iş təcrübəmiz yoxdur".

K.Məsimov əlavə edib ki, ölkənin tikinti sektorunda hazırkı vəziyyəti stabil olaraq qiymətləndirmək olar: "Deməl olmaz ki, tikinti bumu yaşanır, amma ümumilikdə bu sektorda inkişaf dinamikası var".

**Yay mövsümünün gəlişi ilə əlaqədar əqrəb və ilan sancmaları artmağa başlayıb. Hər il yay mövsümündə ilan və əqrəblərin aktivləşməsi müşahidə olunur. Açıqlanan statistik rəqəmlərə əsasən, keçən il Azərbaycanda, ümumilikdə, 106 nəfəri ilan sancıb. 2018-ci ildə qara qurd sancmasına görə 16, əqrəb sancması səbəbindən 24 nəfər həkimə müraciət edib.**

# Rayonlarda həkim-toksikoloq çatışmazlığı - Bakı xəstələrlə yüklənir...



Bu ilin aprel-may-iyun aylarında, ümumilikdə, 44 nəfər ilan sancma ilə əlaqəli 1 saylı Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə müraciət edib. Müraciət edənlər Şirvan, Hacıqabul, Şamaxı, Qəbələ, Şəmkir, Tovuz, Yevlax və Gəncə sakinləridir. İlan sancmasından ölüm faktı qeydə alınmayıb.

Bu ilin may ayında 1 nəfəri qara qurd sancıb, 2 şəxsi isə əqrəb sancıb. İyun ayında isə daha 7 nəfər eyni diaqnoz ilə 1 saylı Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə yerləşdirilib.

İlan və əqrəb sancma paytaxt Bakı ilə müqayisədə daha çox bölgələrdə qeydə alınır. İlan və ya əqrəb sancan şəxs dərhal rayon xəstəxanasına aparılır ki, bu sahə ilə məşğul olan toksikoloq ona zərdab vursun və ya lazımi müalicə etsin. Ancaq bu gün bölgələrdə toksikoloq çatışmazlığı yaşanır. Qeyd olunan problemlə üzləşən şəxslər çarəsizlikdən Bakıya üz tuturlar. Bölgələrdə toksikoloq çatışmazlığının səbəbini öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

**1 saylı Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, Azərbaycanın baş toksikoloqu Azər Maqsudov bildirdi ki, həşərat və ilan sancmaları əsasən aprel-may aylarından başlayır və noyabr ayına kimi davam edir.** Bu problemlə bağlı əsasən Bərdə, Yevlax, İsmayıllı, Hacıqabul, Şamaxı, Qax, Şəki və Tovuzdan da tez-tez müraciət edilir: "İlan sancması ilə xəstəxanaya daha çox cavanlar gətirilir. Hazırda rayon mərkəzi xəstəxanalarının çoxunda həkim-toksikoloq yoxdur. Ancaq Gəncə, Mingəçevir və Lənkəranda bu sahə üzrə mütəxəssis var. Son iki ildir qeyri-ixtisas həkimləri öz iş yerlərini saxlamaqla toksikologiya ixtisası üzrə bir aylıq kurslar keçərək yenidən qayıdıb işlərini davam etdirirlər. Regionlarda yerləşən xəstəxanalarda mütəxəssis toksikoloqun olmaması problem yaratmır. Çünki orada olan reanimotoloqlar xəstənin ilkin vəziyyətini qiymətləndirə bilirlər. Bundan başqa, Səhiyyə Nazirliyinin sanaviasiya xidməti də var ki, ehtiyac olduqda bir neçə saata mütəxəssislərimiz lazımi yerə çatır. İlan sancması, zəhərlənmə və digər hallarda rayonlarda olan başqa sahə üzrə mütəxəssislər bizdən məsləhət ala bilirlər. Xəstənin vəziyyəti ağır olanda isə mütəxəssislər yerindəcə baxış keçirir və ehtiyac yarandığı təqdirdə Bakıya gətirilməsi barədə qərar verilir".

*Azər Maqsudov: "Regionlarda yerləşən xəstəxanalarda mütəxəssis toksikoloqun olmaması problem yaratmır, çünki orada olan reanimotoloqlar xəstənin ilkin vəziyyətini qiymətləndirə bilirlər"*

*Adil Qeybulla: "Bölgələrdə toksikoloq azlığı narahatedici məqamdır"*

**Professor, həkim-ekspert Adil Qeybulla qeyd etdi ki, bölgələrdə toksikoloq azlığı narahatedici məqamdır:** "Məlumat üçün bildirim ki, hazırda Azərbaycan Tibb Universitetində (ATU) kliniki toksikologiya ixtisası ləğv olunub. İnternatura səviyyəsində həmin ixtisas tədris olunur. Başqa ölkələrdə isə həmin adda ayrıca kafedralar fəaliyyət göstərir. Onlar da işini layiqincə yetinə yetirirlər". Həmsöhbətimiz onu da vurğuladı ki, ilan və ya digər həşərat sancmaları daha çox bölgələrdə müşahidə olunur. Ancaq bu gün bölgələrdə toksikoloq çatışmazlığı yaşanır: "Vəziyyəti ağır olan şəxs xüsusi maşınla Bakıya gətirilir. Bölgə xəstəxanasında peşəkar toksikoloq və ya zərdab yetərincə olarsa, xəstənin paytaxta gətirilməsinə ehtiyac yaranmaz".

*Günel CƏLİLOVA*

**Bəzən cəmiyyətdə elə hadisələrlə qarşılaşırıq ki, bu, Azərbaycan xalqı üçün xarakterik deyil. Çox təəssüf ki, cəmiyyətimizdə gedən müəyyən aşınma prosesləri nəticəsində bəzi xoşagəlməz olaylar baş verir. Son zamanlar bizim cəmiyyətdə çox mənfi bir tendensiyanın yayılmaqda olduğunu müşahidə edirik.**

# Cəmiyyətdə milli mentalitetimiz üçün xarakterik olmayan mənfi təzahür - gəlinlərin subay oğlanlara, gənc qızların evli kişilərə qoşulub qaçması...



Bu, 2-3 uşaq anasının gənc oğlana qoşulub qaçması, subay qızın 4 uşaq atasına getməsi, evli kişinin başqa bir evli qadını aparması ilə bağlıdır.

Evində azyaşlı uşaqlarını, həyat yoldaşını qoyub yeni "sevgilisi"nə qoşulub qaçan gəlinlər haqqında tez-tez məlumatlar yayılır. Eləcə də evdə ailəsini, uşağını qoyub gənc qızı qaçıranlar da az deyil. Ümumiyyətlə, bu mənfi tendensiya əsasən bölgələrdə daha çox yayılıb. Bu azmış kimi, öz bacısının ərinə, hətta dayısına qoşulub qaçanlara da təsadüf edilir. Bu barədə vaxtaşırı olaraq yerli saytlar tez-tez xəbərlər yayırlar. Sosioloqlar hesab edirlər ki, gəlinlərin subay oğlanlara, gənc qızların evli kişilərə qoşulub qaçması hallarının yayılması çox mənfi reallıqdır. Onların fikrincə, bunun mövcud olmasının əsas səbəbi erkən nikah, könüllü ailə həyatı qurmamaqla bağlıdır. Sosial şəbəkələrin, internetin də bu halın yayılmasında rolunun az olmadığını deyən mütəxəssislərin bildirdiyinə görə, çox zaman ərli, uşaqlı gənc qadınlar internetdə, sosial şəbəkələrdə tanış olduqları, reallıqda tanımadıqları oğlanlara qoşulub qaçırlar, bu da onların sonradan həm el qınağı ilə qarşılaşmasına, övlad, ər, qohum-əqrəba nifrəti qazanmasına səbəb olur. Bundan başqa, həmin qadınların onları qaçıranlar tərəfindən fahişəliyə və digər neqativ yollara cəlb edilməsi halları da reallıqdır. Bir sıra xarici ölkə seriallarında və internetdə təbliğ olunan "qadın azadlığı" tendensiyası bizim bəzi qadınları qoşulub qaçmağa vadar edir.

Psixoloqlar hesab edirlər ki, övladlarını atıb subay oğlana qoşulub qaçan gəlinlər əsasən sevgi axtarışında olanlardır. Onlar qeyd edirlər ki, uşaqlarını atıb başqasına qoşulub qaçan qadınların əksəriyyəti sonradan peşman olurlar.

**Psixoloq Nərgiz Allahverdiyeva bizimlə söhbətində bildirdi ki, Azərbaycanda əvvəllər belə hallar nadir hallarda baş verərdi, amma indi buna az qala hər ay rast gəlirik.** Ekspert qeyd etdi ki, bu günlərdə İsmayıllı rayonunda 3 uşaq anasının subay oğlana qoşulub qaçması cəmiyyətdə böyük ajiotaj yaradıb. O bildirdi ki, indi gənc və yeniyetmə qızlar arasında da imkanlı evli kişilərə qoşulub qaçanlar var. "Bütün bu halların yaranmasının kökündə o insanların yalnız özlərini düşünməsi dayanır. Onlar ailələrini, gözüyaşlı övladlarını nəzərə almadan bu addımı atırlar. Bu onların övladlarının üzərinə böyük və qara bir damğa qoyur. Bəziləri deyir ki, bu addımı "sevgi naminə" atmışam. Bu hadisənin biri-ikisi sevgi naminə baş verə bilər, qalanları isə ailədən, evin problemlərindən xilas olmaq, azad yaşamaq üçün bu addımı atırlar. 3-4 uşaq anası olan qadınların əksəriyyətini subay oğlanlar evlənmək məqsədilə qaçırmırlar, onlardan müxtəlif vasitələr üçün istifadə etmək üçün qaçırırlar. Gənc oğlanlara qoşulub qaçan qadınların çoxu sonradan bu addımı atdığına, ailəsini, balalarını "sevgisi"nə qurban verdiyinə görə peşman olduqlarını etiraf edirlər, lakin bu faydasız olur. İndi bəzi qadınlar yeni fikirlər irəli sürürlər ki, mən ərimi istəmirəm. İstəmirsənsə məhkəməyə müraciət et, boşan, daha niyə balalarını, ərini, qohum-əqrəbanı rüsvay edirsən? Təəssüflər olsun ki, üçdörd uşaq analarının subay oğlanlara qoşulub qaçması halları mövcuddur. Bunun qarşısının alınması üçün tədbirlər görülməlidir ki, bu kimi hallar kütləviləşməsin. Ya qanunvericilikdə bir maddə olmalıdır, ya da digər bir cəza qaydası tətbiq olunmalıdır".

*Nərgiz Allahverdiyeva: "3-4 uşaq anası olan qadınların əksəriyyətini subay oğlanlar evlənmək məqsədilə qaçırmırlar"*

*Cavid İmamoğlu: "Təəssüflər olsun ki, bizdə son dövrlər evli qadınların subay oğlanlara qoşulub qaçması məsələsi, müəyyən mənada, bəzi saytlar tərəfindən şişirdilir"*

**Sosioloq Cavid İmamoğlu isə hesab edir ki, qadın bu addımı atırsa, bu onun mövcud durumu, yaşadığı şəraitə etirazı ilə bağlı olur.** "Hesab edirəm ki, evli qadın başqasına qoşulub qaçırsa, deməк, ona ailədə hər hansı bir zorakılıq göstərilir və bunun nəticəsində də başqasına qoşulub qaçır. O qoşulub qaçan insan ailənin də, övladın da, münasibətlərin də üstündən xətt çəkir. Azərbaycan hüquqi dövlətdir və insanların məhkəməyə müraciət edərək boşanmaq və yenidən ailə qurmaq imkanları var. Amma təəssüflər olsun ki, bizdə son dövrlər evli qadınların subay oğlanlara qoşulub qaçması məsələsi müəyyən mənada bəzi saytlar tərəfindən şişirdilir. Bunun nəticəsində bu tendensiya təbliğ olunur və başqalarını da bu addımı atmağa vadar edir. İnsanlar başa düşmürlər ki, xoşbəxt deyillərsə, ailədaxili zorakılıqla üzləşirlərsə, təhqir olunurlarsa, bunun yolu məhkəməyə müraciət edib boşanmaq və yenidən ailə qurmaqdır. Evli qadının subay oğlana qoşulub qaçması, yaxud evli kişinin gənc qızı qaçırması xəbərləri medianın gündəmini zəbt etməməlidir. Ümumiyyətlə, ailədə problemi olan insanlara yaxınları dəstək verməlidirlər. Bu dəstək olmadıqda onlar başqasına qoşulub qaçmağa üstünlük verir, bu vəziyyət də onları gələcəkdə dəstəksiz qoyur. Bu kimi tendensiyaların təbliğinin özü yanlışdır" - deyə müsahibimiz bildirdi.

*Leyla QARAXANLI*

№ 117 (4015) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

5 İYUL 2019-cu il

www.baki-xeber.com



## Qədim misirlilərin gözlərinə çəkdiyi sürmənin tərkibində qurğuşun tapıldı

**Misirşünas alimlərin gəldiyi qənaətə görə, qədim misirlilər gözlərinə qalın qat sürmə çəkməsi təkcə makiyaj funksiyası deyil, həmçinin isti iqlim şəraitində gözləri və göz qapaqlarının dərisini günəşdən, tozdan və həşəratlardan qorumaq funksiyası daşıyıb.**

"AZƏRTAC" bildirir ki, alimlər qədim misirlilərin istifadə etdiyi dekorativ kosmetikanın kimyəvi tərkibini araşdırıqda məlum olub ki, gözə çəkilən sürmənin tərkibində qurğuşundan istifadə edilib. Alimlər güman edir ki, qurğuşun birləşmələri gözün selikli qişasındakı infeksiyalardan qorunmaqda səmərəli vasitə olub. Bununla yanaşı, qədim kosmetikada təbiətdə sərbəst formada mövcud olmayan və misirlilər tərəfindən xüsusi qaydada sintez edilən laurenit qurğuşunu ((Pb(OH)Cl) və fosgenit (Pb2Cl2CO3) birləşmələri aşkar olunub. Qədim Misirdə göz üçün boya Sinay dağlarında hasil olunan minerallardan düzəldilib. Sürmə hazırlananda onu toz şəklinə salıb, yaşıl malahit daşının tozunu əlavə edəndən sonra, yağ və piylə qarışdırıb krem şəklinə salıblar. Daha sonra, bu kremləri daş və yaxud saxsı qablarda saxlayıblar. Ümumiyyətlə, Misirdə tapılan qədim artefaktların əksəriyyəti qədim misirlilərin xarici görünüşə, kosmetikaya, parfumeriyaya və gigiyenaya böyük önəm verdiklərinə dəlalət edir.

## Elan

Bəkirov Fikrət Şəmi oğluna Azərbaycan Respublikası DİN tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi 14.05.2019-cu il tarixində itdiyi üçün etibarsız sayılır.

Səfərli Tural Rasim oğluna Masallı Rayon Polis İdarəsi tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüseynov Ramil Ramiz oğluna "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən verilmiş iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rəsulova (İbrahimova) Nəzrin Akif qızına məxsus, Bakı şəhəri, Yasamal rayonu, Ə.Ələkbərov küçəsi, məhəllə 528, ev D, mən 50 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Quliyeva Kamilə Rüstəmovnaya məxsus, Sabunçu rayonu, Ləhiş bağlar massivində yerləşən №5477 bağ sahəsinə verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

Şirinov Rövşən Bahəddin oğluna məxsus, Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Ə.Mehdiyev küçəsi, ev 22, mənzil 4 q ünvanına verilmiş qeydiyyat vəsiqəsi (çıxarış) itib. Tapanlardan aşağıdakı telefon nömrəsi ilə əlaqə saxlamasını xahiş edirik: 051/862-02-94 (Şirinova İradə Bahəddin qızı).

Azercell

## Baramanın startapları üçün imkanlar genişləndi

**2009-cu ildə "Azercell Telekom" MMC tərəfindən yaradılan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi ölkədə sahibkarlıq mühitinin və startap sisteminin inkişafına öz dəstəyini verib.**

Əsasən informasiya texnologiyaları sahəsinə aid olan layihələrin və startapların formalaşaraq müstəqil şirkətə çevrilməsində yardımçı olan mərkəz, "Azercell Telekom" MMC-nin brendi olaraq qalmaqla bundan sonra öz fəaliyyətini Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan İnnovasiyalar Agentliyində davam etdirəcək.

İnnovasiyalar Agentliyi Mərkəzin gələcək fəaliyyət və inkişaf perspektivlərinə dəstək verməklə onun idarəetməsini həyata keçirəcək. Bunun nəticəsində təşkilati proseslərin səmərəliliyinin artırılması yolu ilə ölkədə sözügedən sistemin inkişafı üçün əlverişli şəraitin yaradılması və daha geniş imkanların təqdim edilməsi mümkün olacaq. Qeyd edək ki, hazırda Barama 15 startapa dəstək göstərməkdədir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar" gənc şahmatçılara dəstək olur

**Uşaqların məntiqi təfəkkürünün inkişafına töhfə vermək məqsədilə "Nar" 2-10 iyul tarixlərində Bakıda baş tutan Şahmat üzrə Bakı yay festivalı çərçivəsində keçiriləcək uşaq turnirinə dəstək olur. Qeyd edək ki, uşaq turnirinə 74 şahmatçı qeydiyyata alınıb. 7 tur İsveçrə sistemi üzrə yarışın nəticələrinə görə qaliblər həm pul mükafatı, həm də "Nar"dan xüsusi mükafatlar qazanacaqlar.**

Festivalda şahmatçılar 5 müxtəlif turnirdə mübarizə aparacaqlar. Bakı yay festivalı çərçivəsində Azərbaycanda ilk dəfə beynəlxalq qrossmeyster və beynəlxalq usta normalı paralel yarışlar da keçiriləcək.Yarışda 14 Azərbaycan və Gürcüstan, İran, Türkiyə, Rusiya, İraq və Belarusdan da daxil olmaqla, 10 xarici şahmatçı iştirak edəcək. Start siyahıda 6 qrossmeyster, 4 beynəlxalq usta və 9 FİDE ustası yer alıb.

"Nar" gənclərə və idmana yönəlik korporativ sosial məsuliyyət (KSM) strategiyasına uyğun olaraq, müxtəlif sosial layihələr həyata keçirir. "Nar"ın KSM strategiyası haqqında daha ətraflı www.nar.az saytından əldə edə bilərsiniz. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

**"Nar" abunəçilərinin nəzərinə**

01.08.2019-cu il tarixindən etibarən, Nar-ın korporativ müştəriləri üçün "Buraxılmış zəng" xidməti ödənişli olacaqdır. Daha ətraflı məlumatı www.nar.az saytından əldə edə bilərsiniz.





**Qoç** - Yaşananların məzmununu anlamağa çalışın. Onsuz da gərgin olan əlaqələri ağırlaşdırmayın. Yeni ideyaları reallaşdırmağa tələsməyin. Olaylarda yeni mərhələ, dönüş anı yaxınlaşır.



**Buğa** - Daxili gərginliyin əsirinə çevrilərək gah bu, gah da başqa işi görməyin. Fəaliyyət arealında qayda yaradın. Başladığınız işləri yarımçıq qoymayın, məntiqi nəticə hasil olanadək dayanmayın.



**Əkizlər** - Hiperaktivlik etməyin, məzmununa bələd olmadığınız işlə bağlı təşəbbüsə qapılmayın. Məlumatlar toplayın, müşahidə edin, deyilənlərə qulaq asın. Müzakirələr və toplantılar üçün yaxşı zamandır.



**Xərçəng** - Maliyyə məsələlərində təşəbbüsləriniz uğurlu ola bilər. Yeni işlərdə məhdudiyyətlər yaranacq. Təxirə salınmış, yaxud unudulmuş məsələlərdən biri yenidən gündəmə gələcək.



**Şir** - Sizin vaxtınızdır. Önəmli saydığınız məqsədə çatmaq üçün seçdiyiniz istiqamətdə qətiyyətlə, sürətlə irəliləyin. Situasiyanı planınıza uyğunlaşdırmaq üçün vacib addımları atın.



**Qız** - Sağlam həyat tərzini seçin. Xarici görkəminizdə və ümumiyyətlə, yaşamınızda nəyi dəyişəcəyinizə qərar verin. Aktiv olun, intensiv fəaliyyət göstərin. Ötənlərdə özünü dəfələrlə doğrultmuş metodları seçin.



**Tərəzi** - Qarışıq, mürəkkəb zamandır. Sizdən əlahiddə səbr və təmkin tələb olunur. Sizi münaqişəyə cəlb etməyə çalışacaqlar. Oyun qaydaları, qarşılıqlı münasibətlərin sxemləri dəyişir.



**Əqrəb** - Mürəkkəb əlaqələr hərəkətə gələrək yeni imkanlar yaradacaq. Şanslardan yararlanın. Əlavə seçim imkanı formalaşır. Bir neçə variantı nəzərdən keçirin. Perspektivi ola biləcək mövzu çərçivəsində fəaliyyət daha effektivdir.



**Oxatan** - Yanınızdakı insanların davranışlarında və sözlərindəki dəyişikliklərə fikir verin. Yaşananların məzmununu anlamağa çalışın. Məramlarınızı sürətlə dəyişməyin, yaxşı tanımadığınız insanlara sirr verməyin.



**Oğlaq** - Maraqlandığınız işlə məşğul olun. Həmkarlara, tərəfdaşlara, şəriklərə təzyiq göstərməyin. Maraqlarla məqsədləri razılaşdırsanız, işlərdə daha ciddi irəliləyişlərə nail ola bilərsiniz.



**Dolça** - Seçim zamanıdır. Mövqelərinizi möhkəmləndirin, yaxın ətrafınızdakı insanların sizə təzyiq məqsədilə reallaşdırdıqları manipulyasiyaların qarşısını alın. Eyni vaxtda, bir neçə işlə məşğul olmayın.



**Balıqlar** - Əvvəlcədən hazırladığınız plan üzrə fəaliyyətinizi davam etdirin. Ştrix və detalları hazırlayın, işlərin gedişatına ciddi fikir verin. Münasibətlərdə problemlər yaratmayın. Fiziki işdə xeyir var.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Mosul yaxınlığında qədim sivilizasiyaya aid gizli şəhər tapıldı

**Arxeoloqlar İraqın Mosul şəhəri ətrafında qədim Zaxiku şəhərinin qalıqlarını tapıblar. "Ölkə.az" bildirir ki, şəhər qalıqları bu günə qədər su anbarının suları altında idi. Şəhər Mitanni dövləti dövründə inşa edilib.**

Bu dövlət eramızdan əvvəl XVII-XVIII əsrlərdə mövcud olub. Su anbarında suyun səviyyəsi 2010-cu ildə azalmışdı və qalıqların bir hissəsi üzə çıxmışdı. Amma alimlər qazıntılara başlaya bilmirdilər. Sonradan məlum olub ki, suyun altında 7 metr hündürlükdə divarları olan şəhər var. Binada nə vaxtsa freskalarla bəzədilmiş divarlara rast gəlinib. Sarayın şimal hissəsində şəhərin qalan hissəsidir. Arxeoloqlar 8 otağı qazıb çıxarıblar. Otaqların bəziləri bişmiş kərpicdən tikilib. Divarlarda göy və qırmızı rəngin izləri var. Eyni zamanda, üzərində yazılar olan gil lövhələr də tapılıb. Məlum olub ki, Zaxiku Dəclə çayı sahilində ən azı 400 il mövcud olub. Qeyd edək ki, Mitanninin paytaxtı Taydunun yeri hələ tapılmayıb.

**Hazırladı: Ramil QULİYEV**

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.